# Siqaretlərin aksiz dərəcəsi dəyişdirilib

Elektron qəlyan üçün aksiz müəyyən olunub



**Nazirlər Kabineti "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edib.**

Bununla bağlı qərarı Baş nazir Əli Əsədov imzalayıb.

Qərara əsasən aksiz dərəcəsi tərkibində tütün olan siqaretlərin, eləcə də tərkibində tütün əvəzləyicisi olan siqaretlərin 1 000 ədəd üçün 43,0 manatdan 46,5 manata qaldırılıb.

(səh.2)

# BDU-nun tələbəsi yol qəzasında ölüb



**Bakı Dövlət Universitetinin (BDU) tələbəsi yol qəzasında ölüb.**

BDU-dan "Şərq"ə verilən xəbərə görə, beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin IV kurs tələbəsi Elvin Elçin oğlu Qurbanov martın 13-də avtoqəzaya düşüb.

*BDU rəhbərliyi Elvin Qurbanovun faciəli ölümündən kədərləndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.*


№ 47 (5569), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 mart 2022-ci il (çərşənbə axşamı)




# Ukraynadan Azərbaycana 7500-dən artıq insan gətirilib

Onlardan 3 000-ə yaxını çarter reysəri, 4500-dən çox insan isə avtobuslarla təxliyə edilib

**Ukraynadakı vəziyyətlə əlaqədar, bu ölkədəki Azərbaycan vətəndaşlarının və onların ailə üzvlərinin qonşu ölkələrin ərazisindən keçməklə Azərbaycana təxliyəsi davam edir.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən xəbərə görə, 14 mart 2022-ci il tarixinədək Azərbaycana 7500 artıq insan təxliyə olunub.

(səh.2)

# Bakı İrəvana sonuncu xəbərdarlığını çatdırıb

## Ermənistan 5 maddədən ibarət təklifə cavab verməsə anti-terror əməliyyatı işə düşəcək



**"Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində gərginlik davam etməkdədir". Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, bu fikri söyləmək üçün Azərbaycan Müdafiə Nazirliyinin martın 12-də verdiyi açıqlamaya diqqət etmək kifayətdir:**

"Ancaq bir gün öncə, martın 11-də diplomatik cəbhədə səslənən bəyanatlara qısa nəzər yetirsək, bunların hərb meydanındakı proseslərlə uzlaşdığını göstərən cizgiləri görə bilərik. Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın Ermənistana 5 maddədən ibarət təklif paketi göndərdiyini açıqlayıb. Azərbaycanın yenidən hərbi əməliyyatları gündəmə daşıması fonunda Bakının İrəvana yolladığı şərtlər sonuncu xəbərdarlıq məzmunu daşıyır. Bu xəbərdarlığın motivlərini Azərbaycanın baş diplomatı Ceyhun Bayramovun işlətdiyi ifadədə tapa bilərik: "Ermənistanın cavabı tezliklə bəlli olacaq və biz təbii ki, bundan sonra müvafiq addımlar atacağıq".

(səh.3)



# Şarl Mişel Prezident İlham Əliyevə zəng edib

Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi müzakirə olunub

**Martın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Prezidentin Mətbuat Xidməti xəbər verir ki, söhbət zamanı Cənubi Qafqazda post-münaqişə dövrü, Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası məsələləri müzakirə edilib.

(səh.2)

# Xurşidbanu Natəvanın 190 illiyi qeyd olunacaq



**Prezident İlham Əliyev Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

2022-ci ildə Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın anadan olmasının 190 ili tamam olur.

Qarabağ xanlığının sonuncu varisi Xan qızı Natəvan mənbəyini doğma təbiətin gözəlliklərindən alan ədəbi yaradıcılığını xalqa məhəbbət nümunəsinə çevrilən xeyriyyəçilik fəaliyyəti ilə ahəngdar şəkildə uzlaşdırmış, yaşadığı Şuşa şəhərinin abadlığı və mədəni həyatının canlılığı üçün böyük zəhmət sərf etmiş, humanist təbiətinə və nəcibliyinə görə tanınıb fədakarlıq və mərhə-

(səh.2)

# Rusiya çökür

Putin Çindən həm pul, həm də silah istəyir

(səh.4)







# Azərbaycanda yoluxma sayı 53 nəfərə düşüb

7 nəfər vəfat edib, 168 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 53 yeni yoluxma faktı qeydə alınıb,168 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 790 820 nəfər koronavirus infeksiyasına yoluxub. Onlarda 779 585 nəfər müalicə olunaraq sağalıb, 9 618 nəfər vəfat edib, aktiv xəstə sayı 1 617 nəfərdir.

# Vaxtı və yeri məlum oldu

Rüstəm İbrahimbəyovla vida mərasimi Nizami Kino Mərkəzində baş tutacaq



**Mərhum Xalq yazıçısı Rüstəm İbrahimbəyovla vida mərasimi 16 mart saat 12:00-da Nizami Kino Mərkəzində baş tutacaq.**

Bu barədə Azərbaycan Kinematoqrafçılar İttifaqından məlumat verilib.

*Qeyd edək ki, Rüstəm İbrahimbəyov martın 10-dan 11-nə keçən gecə Moskvada vəfat edib və martın 13-də onunla Moskvada vida mərasimi keçirilib.*

Mərhumun nəşi Bakıya bu gün gətiriləcək.

# Tələbə qəbulu qaydası dəyişdi

Qərar 2023-cü il yanvarın 1-dən qüvvəyə minəcək



**Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilib.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, abituriyentlər ali təhsil müəssisələrinə sənəd qəbulu zamanı I ixtisas qrupu üzrə elektron ərizə doldurarkən, öz istəklərinə uyğun olaraq ərizələrində təhsil almaq istədikləri ixtisas və ya ixtisaslara uyğun olan iki altqrupdan birini, yaxud hər iki altqrupu seçməlidir.

Həmçinin, riyaziyyat-kimya (RK) altqrupuna daxil olan ixtisaslar üzrə - riyaziyyat (nisbi əmsal:1,5), fizika (nisbi əmsal:1,5) və kimya (nisbi əmsal:1), riyaziyyat-informatika (Rİ) altqrupuna daxil olan ixtisaslar üzrə - riyaziyyat (nisbi əmsal:1,5), fizika (nisbi əmsal:1,5) və informatika (nisbi əmsal:1) olacaq.

Qərar 2023-cü il yanvarın 1-dən qüvvəyə minəcək.



# Ermənistan normallaşma prosesinə məcbur edilib

İrəvan hökuməti müharibədən sonrakı reallıqları düzgün qiymətləndirə bilmədi

(səh.4)

# Sosial mediada gerçəkdən uzaq foto və videolar yayılır

"Baş Prokurorluq və Müdafiə Nazirliyinin müraciətinə ikinci fikir ola bilməz"

(səh.7)





## Azərbaycan XİN Səudiyyə Ərəbistanında zavoda edilən hücumu pisləyib

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Səudiyyə Ərəbistanında neft emalı zavoduna edilən hücumu pisləyib.**

Bu barədə XİN-in "Twitter" hesabında bildirilib.

"Bu günlərdə Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərindəki neft emalı zavoduna pilotsuz uçuş aparatı vasitəsilə edilən hücumu pisləyirik. Azərbaycan terrorizmin bütün forma və təzahürlərini pisləyir. Azərbaycan Səudiyyə Ərəbistanı ilə bu ölkənin təhlükəsizliyini, sabitliyini və ərazi bütövlüyünü qorumaq üçün həyata keçirdiyi tədbirlərdə həmrəy olduğunu bildirir", - məlumatda deyilir.

## Türkiyə və Ukrayna XİN başçıları telefonla danışıb



**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ukraynalı həmkarı Dmitro Kuleba arasında telefon danışığı olub.**

Bu barədə Türkiyə XİN məlumat yayıb.

Məlumatda qeyd olunub ki, danışıq zamanı Ukraynadakı hazırkı vəziyyət müzakirə edilib, həmçinin Dmitro Kuleba türkiyəli həmkarına humanitar məsələlərlə bağlı məlumat verib.

## Aİ Rusiyaya qarşı dördüncü iqtisadi və şəxsi sanksiyalar paketini təsdiqləyib



**Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı dördüncü iqtisadi və şəxsi sanksiyalar paketini təsdiqləyib.**

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, iclasa Fransa sədrlik edib.

"Aİ ölkələrinin Daimi Nümayəndələr Komitəsi beynəlxalq tərəfdaşlarla razılaşdıraraq, Ukraynaya qarşı təcavüzdə iştirak edən fiziki və hüquqi şəxslərə, eləcə də Rusiyanın bir sıra iqtisadi sektorlarına qarşı yönəlmiş dördüncü sanksiyalar paketini razılaşdırıb", - bəyanatda deyilir.

# Şarl Mişel Prezident İlham Əliyevə zəng edib

### Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi müzakirə olunub



**Martın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Prezidentin Mətbuat Xidməti xəbər verir ki, söhbət zamanı Cənubi Qafqazda post-münaqişə dövrü, Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası məsələləri müzakirə edilib.

Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün göstərdiyi səylərinə görə Prezident Şarl Mişelə təşəkkürünü bildirib.

Prezident Şarl Mişel qeyd edib ki, Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi, sülhü və çiçəklənməni dəstəkləməkdə davam edəcək.

Söhbət zamanı, həmçinin Ukraynadakı son hadisələrin inkişafı və bunun Cənubi Qafqazda regional təhlükəsizliyə mümkün təsiri məsələləri də müzakirə olunub.

# "Ən mühüm məsələ atəşin dayandırılmasıdır"

### Ərdoğan: "Ukraynada atəşkəsin əldə olunması üçün səylərimizi əsirgəməyəcəyik"



**"Ukraynada daimi atəşkəsin əldə olunması üçün səylərimizi davam etdirəcəyik".**

"Report" "Anadolu"ya istinadən xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Almaniyanın Kansleri Olaf Şolts ilə keçirdiyi birgə mətbuat konfransında deyib.

O, Avropanın təhlükəsizliyi üçün tədbirlər görməklə yanaşı, Rusiya-Ukrayna münaqişəsinin diplomatik yolla həlli istiqamətində səylərini artıracaqlarını bildirib: "Görüşdə əsasən Rusiya-Ukrayna böhranı ilə bağlı müzakirələr apardıq. Problemin həlli üçün diplomatik səylərin gücləndirilməsinin önəmi qeyd olundu. Daimi atəşkəsin təmin olunması istiqamətində səylərimizi yorulmadan davam etdirəcəyik. Mülki şəxslər üçün humanitar dəhlizlər yaradılmalıdır. Burada ən mühüm məsələ atəşin dayandırılmasıdır".

# Siqaretlərin aksiz dərəcəsi dəyişdirilib

### Elektron qəlyan üçün aksiz müəyyən olunub

**Nazirlər Kabineti "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edib.**



Bununla bağlı qərarı Baş nazir Əli Əsədov imzalayıb.

Qərara əsasən aksiz dərəcəsi tərkibində tütün olan siqaretlərin, eləcə də tərkibində tütün əvəzləyicisi olan siqaretlərin 1 000 ədəd üçün 43,0 manatdan 46,5 manata qaldırılıb.

Eyni zamanda istehlak olunan tütün və tütün məhsullarının 1 000 ədəd üçün 12,9 manatdan 14 manata qaldırılıb.

Dəyişikliklərə əsasən qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlərin 1 kiloqramına görə aksiz dərəcəsi 30 manat müəyyənləşdirilib.

Dəyişikiklərlə həmçinin birdəfəlik istifadə olunan elektron qəlyan, siqaret üçün aksiz dərəcəsi 0,25 manat müəyyən olunub.

Qərar 30 gün sonra qüvvəyə minəcək.

**Prezident İlham Əliyev Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**



# Xurşidbanu Natəvanın 190 illiyi qeyd olunacaq

2022-ci ildə Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın anadan olmasının 190 ili tamam olur.

Qarabağ xanlığının sonuncu varisi Xan qızı Natəvan mənbəyini doğma təbiətin gözəlliklərindən alan ədəbi yaradıcılığını xalqa məhəbbət nümunəsinə çevrilən xeyriyyəçilik fəaliyyəti ilə ahəngdar şəkildə uzlaşdırmış, yaşadığı Şuşa şəhərinin abadlığı və mədəni həyatının canlılığı üçün böyük zəhmət sərf etmiş, humanist təbiətinə və nəcibliyinə görə tanınıb fədakarlıq və mərhəmət mücəssəməsi kimi sevilmişdir. Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir.

Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində saxlanılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdır. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şəhər şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra əzəli məkanına qaytarılmışdır. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda, xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

Sərəncamda qeyd edilir ki, görkəmli şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xurşidbanu Natəvanın 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## Ukraynadan Azərbaycana 7500-dən artıq insan gətirilib

### Onlardan 3 000-ə yaxını çarter reysəri, 4500-dən çox insan isə avtobuslarla təxliyə edilib

**Ukraynadakı vəziyyətlə əlaqədar, bu ölkədəki Azərbaycan vətəndaşlarının və onların ailə üzvlərinin qonşu ölkələrin ərazisindən keçməklə Azərbaycana təxliyəsi davam edir.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən xəbərə görə, 14 mart 2022-ci il tarixinədək Azərbaycana 7500 artıq insan təxliyə olunub. Onlardan 3 000 yaxını çarter reysəri, 4500-dən çox insan isə avtobuslarla təxliyə edilib.

Vətəndaşlarımızın təxliyəsi üçün Azərbaycan hökuməti tərəfindən Rumıniyanın Yassi və Buxarest, Polşanın Katoviçe şəhərlərindən indiyədək 15 çarter reysi təşkil olunub. Bu reyslərlə əsasən qadınlar, uşaqlar, yaşlılar, xəstələr və digər həssas qrupa daxil olan vətəndaşlarımızın təxliyəsinə üstünlük verilib.

Ukraynadakı vəziyyətlə əlaqədar bu bölgədə daimi və müvəqqəti yaşayan, səfərdə olan soydaşlarımızın, həmçinin şəxsi imkanları hesabına Azərbaycana geri dönüşü həyata keçirilir.



## Latviyalı deputat Ukraynada döyüşmək üçün mandatından imtina edib

**Latviya Seyminin hüquq komissiyasının rəhbəri, Mühafizəkarlar fraksiyasının lideri, deputat Yuris Yuraş Ukraynada könüllü döyüşmək üçün mandatından imtina edib.**

APA-nın "Ukrinform"a istinadən xəbər verir ki, bu barədə LSM telekanalı məlumat yayıb.

"Biz deyirik ki, Ukrayna indi təkcə öz azadlığı üçün deyil, həm də bizim azadlığımız üçün, xüsusən də Latviya və Avropa İttifaqı üçün mübarizə aparır. Hesab edirəm ki, ümumi qələbəmizə töhfə vermək üçün mümkün olan hər şeyi etmək bizim borcumuzdur", - Yuraş bildirib.

*Deputat ərizəsini artıq təqdim edib.*

## Rusiya-Ukrayna danışıqlarının növbəti mərhələsində birgünlük fasilə götürülüb

**Rusiya-Ukrayna danışıqlarının növbəti mərhələsində birgünlük texniki fasilə götürülüb.**

Bunu Ukrayna Prezident Ofisinin rəhbəri Mixaylo Podolyak öz "Twitter" səhifəsində yazıb.

"Danışıqlarda sabahadək (bu günə) texniki fasilə götürülüb. İşçi altqruplarda əlavə işlərin görülməsi və bəzi məqamların dəqiqləşdirilməsi nəzərdə tutulur. Danışıqlar davam edir", - deyə o bildirib.

*Qeyd edək ki, tərəflər arasında danışıqların bu gün başlayan mərhələsi onlayn formatda keçirilir.*

# "Vacib məsələlərdən biri də Ordumuzda qohum-əqrəba şəbəkəsinin dağıdılmasıdır"

### Əliməmməd Nuriyev: "Korrupsiya şəbəkəsini tamamilə dağıtmaq, qazıyıb köklərini çıxarmaq ölkəmizin milli təhlükəsizlik məsələsidir"

**"Müdafiə Nazirliyində DTX-nın keçirdiyi anti-korrupsiya əməliyyatı və həbslər davam edir. Bu həbslər Müdafiə Nazirliyində geniş korrupsiya şəbəkəsinin mövcud olmasından və dərin kök salmasından xəbər verir".**





Bu barədə Konstitusiya Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev deyib. Ekspert bildirib ki, korrupsiya şəbəkəsini tamamilə dağıtmaq, qazıyıb köklərini çıxarmaq ölkəmizin milli təhlükəsizlik məsələsidir: "Bu prosesi yalnız alaq etməklə yekunlaşdırmaq, prosesi yarımçıq saxlamaq müzəffər Ordumuza böyük zərbə olardı. İndiyə qədər ictimaiyyət üçün açıqlanan məlumatların təhlili göstərir ki, korrupsiya şəbəkəsi yalnız Orduya ayrılmış maliyyə vəsaitini mənimsəməklə məşğul olmurmuş. Həmçinin istisna deyil ki, xarici qüvvələrə xidmət etməklə, bilə-bilə Silahlı Qüvvələrimizin döyüş potensialını aşağı salmağı da məqsəd kimi qarşıya qoyub. Hesab edirəm ki, orduda korrupsiya halları ilə bağlı araşdırma daha genişmiqyaslı olmalı, müvafiq rəhbər şəxslər də məsuliyyətdən kənarda qalmamalıdır. Biz Nazirliyin tibb xidməti ilə bağlı da şikayətlər alırıq. Bu sahəyə də diqqət yetirilməlidir".

**Ə.Nuriyevə görə, vacib məsələlərdən biri də Ordumuzda qohum-əqrəba şəbəkəsinin dağıdılmasıdır:** "Nazirliyin rəhbər şəxslərinin yaxın qohumlarının korrupsiya riski yüksək olan sahələrdə vəzifəyə gətirilməsi korrupsiya üçün münbit şərait yaradır. Bütün bu tədbirlərlə yanaşı müdafiə sektoruna parlament və ictimai nəzarətin gücləndirilməsi üzərində düşünmək zəruridir. Azərbaycan bu sahədə beynəlxalq reytinqlərdə geri qalır və ölkəmizi bu tənqidlərdən qorumaq üçün müvafiq addımlar atılmalıdır".

**İsmayıl**

**"Rusiyanın Ukraynaya təcavüzü, Moskvanın bu ölkəni və xalqı birdəfəlik itirməsi ilə nəticələnəcək".**

*Bu sözləri ReAL təmsilçisi, iqtisadçı Natiq Cəfərli deyib. Ekspert bildirib ki, Ukrayna xalqı yalnız döyüş meydanında öz seçimini etmir, həm də "ayaqları" ilə öz yolunu, yönümünü seçir:* "Ukraynanın şərqindən, Xarkovdan ölkənin Qərbinə, Lvov şəhərinə 1033 km, Avropa Birliyinin sərhədinə isə 1100 km-dən də çox məsafə var. Həmin şəhərlərdən, məsələn, Xarkovdan Rusiya sərhədinə yol isə cəmi 38 km-dir, hətta piyada da getmək olar. Amma xarkovlular 1000 km-dən çox məsafəni zülmlə, bombalar və təhlükələr altında qət edib Lvova, Avropa Birliyinə üz tuturlar. Şərqi Ukrayna ən şiddətli döyüşlərin getdiyi bölgələrdir. Kreml o bölgələri "rusdilli", "Rusiyaya meyilli" kimi görürdü, hətta Rusiya ordusunun oralarda gül-çiçəklə qarşılanacağına inanırdı. 4 milyon Ukrayna vətəndaşı artıq ölkəni tərk edib. Onlardan 1,5 mln. nəfərdən çoxu AB ölkələrinə keçib, yerdə qalanlar da Ukraynanın qərbində, Moskvanın "benderlərin məkanı" saydığı şəhərlərə köçüb. Yəni bu gün Ukrayna əhalisi əsl "referendum" keçirir, öz yolunu-izini seçir, məhz bu, Kremli qəzəbləndirir. Plan bu idi ki, Rusiya ordusu şərqi Ukraynaya daxil olan kimi əhalinin böyük əksəriyyəti onları xoş qarşılayacaq, müharibədən qaçan yüz minlərlə ukraynalı isə Rusiyaya gedəcək. Kreml də bundan istifadə edib şou düzəldəcək. Dünyaya, "ukraynalılar "faşistlərdən", "benderlərdən" qaçıb Rusiyaya sığınır" mesajı verəcəkdilər. Amma alınmadı, Ukrayna xalqı Rusiyanı seçmədi, bu gün Xarkovun, Sumının vəhşicəsinə bombalanması da məhz bunun qəzəbidir".



# "Rusiya Ukraynanı və xalqını birdəfəlik itirdi"

### "Plan bu idi ki, Rusiya ordusu şərqi Ukraynaya daxil olan kimi əhalinin böyük əksəriyyəti onları xoş qarşılayacaq"

**İsmayıl**

# Bakı İrəvana sonuncu xəbərdarlığını çatdırıb

## Ermənistan 5 maddədən ibarət təklifə cavab verməsə anti-terror əməliyyatı işə düşəcək



**”Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində gərginlik davam etməkdədir”. Bunu ”Şərq”ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, bu fikri söyləmək üçün Azərbaycan Müdafiə Nazirliyinin martın 12-də verdiyi açıqlamaya diqqət etmək kifayətdir:**

”Ancaq bir gün öncə, martın 11-də diplomatik cəbhədə səslənən bəyanatlara qısa nəzər yetirsək, bunların hərb meydanındakı proseslərlə uzlaşdığını göstərən cizgiləri görə bilərik. Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın Ermənistana 5 maddədən ibarət təklif paketi göndərdiyini açıqlayıb. Azərbaycanın yenidən hərbi əməliyyatları gündəmə daşıması fonunda Bakının İrəvana yolladığı şərtlər sonuncu xəbərdarlıq məzmunu daşıyır. Bu xəbərdarlığın motivlərini Azərbaycanın baş diplomatı Ceyhun Bayramovun işlətdiyi ifadədə tapa bilərik: ”Ermənistanın cavabı tezliklə bəlli olacaq və biz təbii ki, bundan sonra müvafiq addımlar atacağıq”.

Digər bir bəyanat isə xarici işlər nazirinin müavini Xələf Xələfovdan gəldi. Cənab Xələfov Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında yaşayan mülki ermənilərin Azərbaycan vətəndaşı olduqlarını xatırlatdı. Bunun ardınca isə hərbi-diplomatik yüklü bir mesaj ünvanladı və qanunsuz erməni hərbi birləşmələrinin həmin ərazilərdən çıxarılmasının vacibliyini dilə gətirdi və bu istiqamətdə prosesin gedəcəyini bildirdi”.

**A.Kərimov qeyd edib ki, diplomatik-siyasi mesajların suyu çəkilməmiş Azərbaycan Müdafiə Nazirliyi erməni təxribatlarına dair daha bir məlumat yaydı.**

Məlumatda iki əsas məqam var: ”Azərbaycan Ordusu erməni təxribatlarına (Ağdam, Xocavənd və Xocalı rayonları istiqaməti) cavab olaraq qanunsuz dəstə üzvlərinin döyüş mövqelərinə zərbələr endirib. Əməliyyat şəraiti Azərbaycan Ordusunun nəzarəti altındadır. Birinci bənd onu göstərir ki, artıq təxribat törədən hər hansı erməni yox, onun girib gizləndiyi mövqe də atəşə tutulur. Bu, MN-in son günlərdəki açıqlamasındakı ikinci belə haldır. Bundan əvvəl də Azərbaycanın Müdafiə Nazirliyi erməni separatçıların mövqelərinə dəqiq zərbələr endirildiyini bəyan etmişdi. Bəs separatçıların neçə mövqeyi darmadağın edilib? Bunu zamanla yəqin ki, rəsmi qurumlar açıqlayacaqlar. Əməliyyat şəraitinin Azərbaycan Ordusunun nəzarətində olması isə o deməkdir ki, ordumuz nəyə lazımdır nail olur və vəziyyətə nəzarəti gücləndirir. Sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərdəki hazırkı mənzərə Azərbaycanın psixoloji təzyiq ilə hərbi-taktiki gedişlərin vəhdətidir. Artıq həmin zonalardakı mülki ermənilər də separatçıların onlara gətirdiyi bəlalardan təngə gəliblər, mümkündür ki, onlar separatçılara rəhbərlik edənlərə etiraz aksiyası təşkil etsinlər və cana yığıldıqlarını desinlər”.

**İsmayıl Qocayev**



# Çox az qaldı

## “O ərazilərimizdə də bayrağımız ucaldılacaq”

**Martın 7-də Ermənistandan Qarabağa təbii qaz ötürən kəmərdə problem yaranıb. Həmin gündən Xankəndi və ətraf ərazilərə qazın verilişi dayandırılıb. On iki mart gecə saat 21:20-də isə Xankəndinin işıqları sönüb. Şəhərə elektrik enerjisinin nə zaman veriləcəyi isə hələlik bəlli deyil.**

*Hərbi ekspert Ədalət Verdiyev hazırda Qarabağda baş verənlərlə bağlı ”Şərq”ə danışarkən bildirib ki, bu, erməni silahlılarının indiyə qədər həmin ərazilərdən çıxarılmamasının nəticəsidir:*

”Son vaxtlar atəşkəsin intensiv şəkildə pozulması Qarabağda rusların nəzarətində yaşayan ermənilərin qaz təminatının dayanması ilə nəticələndi. Böyük ehtimalla bu qaz xəttini Ermənistan tərəfdən atılan mərmi zədələyib. Həftələrlə gəlməyən qaz elektik təchizatına tələbatı artırdı və nəticədə ermənilərin istifadəsində olan transformator sistemi də yüklənməyə tab gətirməyib sıradan çıxdı”.

> “Qarabağ ərazisində yaranmış gərginliyə görə Ermənistan silahlı qüvvələri və rus sülhməramlıları məsuliyyət daşıyırlar”

**Ə.Verdiyevin qənaətincə, hazırda erməni silahlılarının Azərbaycan tərəfinə açdığı atəşə adekvat cavab tədbirlərinin görülməsi ordumuzun ata biləcəyi ən yumşaq addımdır:** ”Əslində atəş açılan mövqelərin tamamilə Azərbaycanın nəzarətinə keçməsini və həmin ərazilərdə bayrağımızın ucaldılmasını gözləyirdik. Yəqin ki, yaxın günlərdə bu da baş verəcək. İstənilən halda indi Qarabağ ərazisində yaranmış gərginliyə görə Ermənistan silahlı qüvvələri və rus sülhməramlıları məsuliyyət daşıyırlar”.

**Günəş Mərd**

# Türkiyə və Qərb yaxınlaşacaq

## Antalya forumu Ankaranın regionda və dünyadakı gücünü artırdı



**Antalyada ikinci dəfə təşkil edilən Diplomatiya Forumu çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun baş katibi Yens Stoltenberqi qəbul edib.**

Y.Stoltenberq Türkiyənin Ukraynada münaqişənin sülh yolu ilə həllinə gətirib çıxara biləcək diplomatik və siyasi prosesləri asanlaşdırmaq üçün göstərdiyi səyləri təqdir etdiyini bildirib.

Qeyd edək ki, martın 10-da Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə Rusiyanın Xarici işlər naziri Sergey Lavrov və Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba arasında üçtərəfli görüşün keçirilməsi Antalya Diplomatik Forumunun əhəmiyyətini daha da artırıb. Forumda bir çox ölkə rəsmiləri iştirak edib. Eləcə də Azərbaycanın hökumət nümayəndələri, siyasi partiyaların rəhbər şəxsləri, Milli Məclisin deputatları, ictimaiyyətin digər nümayəndələri bu tədbirdə təmsil olunur.

Artıq rəsmi Bakı və rəsmi Ankara müəyyən gücə malikdir, regionda söz sahibidirlər. Avropa ölkələri siyasi, hərbi, iqtisadi və s. məsələlərdə Türkiyənin ”qapısını döyür”, məsləhətlər alır, hətta kömək istəyir. Azərbaycan-Türkiyə tandemi Ukrayna və Rusiya arasındakı gərgin münasibətdə bir növ körpü rolunu oynayır. Lakin gedişatın necə nəticələnəcəyi məlum deyil.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan politoloq Həsrət Rüstəmov bildirib ki, Diplomatik Forum Türkiyə nüfuzunun dünyada, xüsusilə də regionda artmasına səbəb olub:**

”Həm Stoltenberq, həm də ABŞ Prezidenti Co Bayden haqlıdır. Bildiyimiz kimi, Forumun açılışından sonra Ərdoğan və Bayden uzun müddətli telefon danışıqları aparıb. Mediada da bildirildi ki, ABŞ prezidenti bu Forumun keçirilməsindən çox razı qalıb”.

**Politoloq hesab edir ki, bu yolla Türkiyə və Qərb yaxınlaşacaq:**

”Ümumiyyətlə, bu forum rəsmi Ankaranın regionda və dünyada gücünün kifayət qədər yüksəldiyini, bölgədəki münaqişələrin həllində aktiv rol aldığını, xarici siyasətdə və diplomatiyada əvvəlki 10 ilə nisbətən çox irəli getdiyini göstərir.

Təbii ki, Azərbaycan üçün həm xarici siyasət maraqları baxımından, həm də etnik yaxınlıq cəhətdən sevindirici haldır. Qərb və qardaş ölkə arasında bir sıra problemlər vardı. Hesab edirəm ki, bu forumdan sonra problemlər həllini tapacaq”.

**Cəmilə Əzim**

# Xəyanət, satqınlıq, etibarsızlıq

## Paşinyan yanlış addımları ilə ölkəsinə əlavə problemlər yaradacaq



**“Ermənistan addımları ilə onu dövlət kimi saxlayan Rusiyaya hər zaman xəyanət edib”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında millət vəkili, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu deyib.

**Ekspert Rusiya-Ukrayna müharibəsi dönəmində rus-erməni münasibətlərindən danışıb:**

”Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan Rusiyadan dəstək almasına baxmayaraq, nankorluq etdi. Sərgilədiyi mövqelər rusların maraqlarına toxunurdu. N.Paşinyan da həmişə olduğu kimi dar baxış bucağına söykənərək irəliləyir. Onu Qərb hakimiyyətə gətirib deyə, o dairənin nəzarəti altındadır. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə görə aciz qalan Paşinyan məcbur Rusiyaya sığındı. İndiki şəraitdə o düşünür ki, Qərblə daha rahat ünsiyyət qurmağın zamanıdır. Lakin yanlış fikirdir. Rusiya geosiyasi gücə malik ölkədir. Gücünü itirəcəyini düşünmürəm. N.Paşinyanın yanlış addımı Ermənistan üçün problemlər yaradacaq. Ermənistanın xisləti belədir: xəyanət, satqınlıq, etibarsızlıq”.

*Qeyd edək ki, Ermənistanın Baş naziri Nikol Paşinyan bir müddət əvvəl Fransaya işgüzar səfərə gedib. Fransalı həmkarı Emmanuel Makronla görüşüb və ”Ambisiyalar: Ermənistan-Fransa” forumuna qatılıb. Bəzi ekspertlər Qərbə sığınan rəsmi İrəvanın bu hərəkətini Rusiyaya qarşı yeni bir xəyanət kimi qiymətləndirib.*

**Aygün Tahir**



# Möhtəşəm qələbə...

## İrəvan seçim qarşısında qaldı

**Martın 11-də Bakıda Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası keçirilib. İclasda Bakı ilə Tehran Anlaşma Memorandumu və bir sıra mühüm sənədlər imzalanıb. Memoranduma görə, Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvanla birləşdirən yeni kommunikasiya bağlantılarının İran ərazisindən keçməklə yaradılması haqqında anlaşma əldə olunub.**

İranın Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə deyib ki, lazımi infrastruktur qurularsa, Azərbaycan və İran arasında tranzit sahəsində yeni imkanlar yaranacaq. Xətibzadənin sözlərinə görə, ötən bir neçə ay ərzində iki ölkə arasında əlaqələr daha da intensivləşib: ”Nəticədə birgə komissiyanın iclası təşkil olunub və sənəd imzalanıb”. O əlavə edib ki, ötən 30 il ərzində Azərbaycan vətəndaşları Naxçıvana gedib-gəlmək üçün Biləsuvar sərhəd-keçid məntəqəsindən keçməklə İran ərazisindən istifadə edirdilər: ”Müharibə başa çatdıqdan sonra Naxçıvana daha yaxın məntəqədən istifadə etməklə İran ərazisindən keçmək məsələsi irəli sürülüb”. Araz çayı üzərində salınacaq iki avtomobil və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, həmçinin rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədinə 5 km məsafədə keçəcək. Tərəflərin ərazilərində gündə 500 ədəd giriş-çıxış olmaqla, ən azı 1000 ədəd yük nəqliyyatı parkını qəbul edə biləcək dövlət sərhədindən buraxılış məntəqəsinin tikilməsini planlaşdırır. Prinsip etibarilə Araz çayının sağ sahilindən Ordubada gediş-gəlişi təmin edən yol əvvəldən olub. Təəssüf ki, 27 illik işğal prosesi digər yollar kimi, bu yolun da istifadəsini mümkünsüz etdi. Yeni memorandumla isə artıq həmin yol Zəngəzur dəhlizi kontekstində şaxələnəcək. İran ərazisi vasitəsilə yeni kommunikasiya bağlantılarının yaradılması layihəsi geniş mənada regionun nəqliyyat-kommunikasiya xəritəsində strateji dəyişikliklərə səbəb olacaq layihə hesab olunur. Rəsmi Tehran da bunu yaxşı başa düşür. İran tərəfi həm də onu anlayır ki, belə bir layihə Ermənistan ərazisindən deyil, məhz onun ərazisindən keçərsə, bu, İranın da regionda rolunu artıracaq. Sözügedən Anlaşma Memorandumunun qeyri-müəyyən müddətə bağlanması da bunu bir daha təsdiq edir. İrandan fərqli olaraq Ermənistan Zəngəzur dəhlizinin yaradılmasında faktiki olaraq maneçilik törədir. Rəsmi İrəvan bu günə qədər müxtəlif bəhanələrlə qəsdən dəhlizi əngəlləməyə çalışır. Ermənistan siyasi dairələri anlamır ki, bu dəhlizin reallaşması hər şeydən öncə rəsmi İrəvanın özü üçün əlavə dividendlər yaradacaq. Misal üçün, dəhlizin Ermənistan ərazisindən keçməsi iqtisadi cəhətdən ciddi problemlər yaşayan Ermənistanın blokadadan çıxması, dünyaya inteqrasiyasını sürətləndirə bilər. Digər tərəfdən, Zəngəzur dəhlizinin açılması Ermənistanı regionda yaradılacaq TANAP bənzəri ehtimal yeni layihələrdə pay sahibi edə bilər. İran tərəfi uzaqgörən siyasətdən məhrum Ermənistan hakimiyyətindən fərqli olaraq regional reallığı dərk edərək Ermənistana təklif edilən bu fürsətdən yararlanmağı bacardı. Rəsmi Tehran yeni kommunikasiya bağlantısını Ermənistanın sərhədindən cəmi 5 kilometr aralıda ərazisindən keçirməklə Ermənistanı faktiki olaraq ofsaytda qoymuş oldu. Rəsmi Bakı İranla imzalanan Anlaşma Memorandumu ilə İrəvanı seçim qarşısında qoydu. Yəni ya Zəngəzur dəhlizinin açılması ilə razı olmalı, ya da regional layihələrdən kənarda qalmalıdır.

**Millət vəkili Tahir Mirkişili**

> İran Zəngəzur dəhlizinə yol verməklə Ermənistanı faktiki olaraq ofsaytda qoydu

**Azərbaycanla İran arasında imzalanmış Anlaşma Memorandumunu tarixi hadisə adlandırıb. Deputat bildirib ki, sazişə əsasən Araz çayı üzərində tikilən körpülər vasitəsilə Zəngilan rayonu ilə Ordubad rayonu avtomobil, dəmir yolu, elektrik, qaz, rabitə xətləri ilə birləşdiriləcək:**

”Bu saziş Azərbaycan və İranın dövlət maraqlarına xidmət edən layihənin reallaşması üçün yeni mərhələnin başlanması deməkdir. Sazişlə əslində Azərbaycan Zəngəzur dəhlizini cənub istiqamətində genişləndirdi. Ermənistan ərazisindən keçəcək Zəngəzur dəhlizinin şimal istiqaməti ilə bir-birini tamamlayacaq. Lazım gəldikdə isə əvəzedici rolunu oynayacaq bu yeni kommunikasiya yolu Azərbaycanın və partnyorlarının imkanlarını xeyli genişləndirəcək. Hər hansı bir dövlətin inhisar mövqeyini aradan qaldıracaq. Qısacası, bu saziş ilə Azərbaycan Ermənistanın yersiz və səbatsız siyasi hesablarını alt-üst etdi. Zəngəzur dəhlizindən Azərbaycana təzyiq aləti kimi istifadə etməyi planlaşdıran Ermənistan sonda özü təzyiq altına düşdü. İndi artıq Ermənistan Azərbaycanla Şimali Zəngəzur dəhlizinin açılmasını yeni şərtlər və şəraitdə müzakirə etməli olacaq. İqtisadiyyat romantizmi sevmir, o, praqmatizmə və dəmir məntiqə əsaslanır. Ermənistan vəziri vurulmuş, vəzir olmağa çalışan piyada gedişləri ilə məşğuldur”.

**Millət vəkili Vüqar Bayramov da bəyan edib ki, yeni kommunikasiya bağlantılarının yaradılması regionun nəqliyyat infrastrukturunun genişlənməsinə imkan verəcək. Deputat qeyd edib ki, anlaşmada layihənin maliyyələşdirilməsi üzrə də razılıq əldə edilib:**

”Azərbaycan Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirən avtomobil körpüsünün, İran isə Naxçıvan MR-nın Ordubad rayonu ilə birləşdirən avtomobil körpüsünün tikintisini maliyyələşdirəcək. Avtomobil yoluna paralel dəmir yolu xətti də inşa ediləcək. Növbəti 6 ayda dəmiryolu xəttinin tikintisinin maliyyələşdirilməsi məsələsi də razılaşadırılacaq. 2020-ci il noyabrın 10-da bağlanan üçtərəfli anlaşmadan keçən müddətdə Ermənistan Zəngəzur dəhlizinin qısa zamanda yaradılmasına əngəllər yaratdı. Halbuki, Ermənistan ərazisindən belə dəhlizin reallaşması iqtisadi baxımdan bu ölkənin özü üçün də yeni imkanlar yarada bilərdi. Digər tərəfdən, Ermənistan Zəngəzur dəhlizinə ”dəhliz” deyil, ”yol” kimi baxaraq bu faktordan gələcəkdə Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyə can atırdı. Halbuki, heç bir halda kommunikasiyalarda regionun Ermənistandan asılılığı mümkün deyil. İrəvandakı revanşist meyillər bu reallığı qəbul etməyə imkan vermədi. Azərbaycan Ermənistanın sərhədindən cəmi 5 kilometr aralıda - İran ərazisindən keçəcək yeni kommunikasiya bağlantısı yaratmaqla öz planlarını reallaşdırdı. Yenidən Ermənistan mühüm geostrateji əhəmiyyətə malik layihədən kənarda qaldı. Yeni layihə regionda əməkdaşlıq üçün yeni imkanlar yaratması baxımdan vacib olmaqla yanaşı, bölgədə davamlı sülhün qorunub saxlanması aspektindən də mühümdür. Regionun kifayət qədər iqtisadi potensialı var. Bu da regional nəqliyyat infrastrukturunun əhəmiyyətini daha da artırır. Digər tərəfdən, bu nəqliyyat xəttinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşağına çevirəcək”.

*Parlament üzvü deyib ki, anlaşma Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək:* ”Bu yol xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmin edilməsi baxımından əhəmiyyətli olacaq. Eyni zamanda, elektrik enerjisi ixracatçısı olan Azərbaycan İran ərazisindən keçməklə yalnız Naxçıvana və qardaş Türkiyəyə deyil, daha geniş coğrafiyaya, o cümlədən Avropaya elektrik enerjisi ixrac etmək imkanı da qazanacaq. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar fonunda region üzərindən daşınan beynəlxalq yüklərin həcmində artımların olacağı gözlənilir. Bu isə ondan xəbər verir ki, yeni anlaşma ilə Azərbaycan regiondakı geosiyasi mövqeyini daha da gücləndirə biləcək. Etiraf etmək lazımdır ki, bu layihə Azərbaycan diplomatiyasının mühüm qələbəsidir və ölkəmizin iqtisadi inkişafına xüsusi töhfə verəcək. Regionda yeni düzən formalaşmaqdadır. İnanırıq ki, bu düzən fonunda tezliklə yeni xoş reallıqlar gerçəkləşəcək”.

**İsmayıl Qocayev**

# Rusiya çökür

## Putin Çindən həm pul, həm də silah istəyir




## Sanksiyalar nəticəsində ehtiyatların yarısı - 300 milyard dolları dondurulub

**Rusiya Maliyyə Nazirliyi ölkəyə tətbiq edilən sanksiyaların indiyə qədər ehtiyatların yarısını - 300 milyard dolları dondurduğunu etiraf edib. Rusiyanın maliyyə naziri etiraf edib ki, sanksiyalar Moskvanın xarici banklardakı 300 milyard dollarlıq qızıl və dollara çıxışına mane olub.**

"Financial Times" və "The New York Times" qəzetlərinin xəbərlərinə görə, Rusiya Çindən hərbi və iqtisadi yardım istəyib. "Financial Times"ın məlumatına görə, Moskva Ukraynada istifadə üçün Çindən hərbi təchizat xahiş edib.

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, qəzetin xəbərində adı açıqlanmayan ABŞ rəsmiləri qeyd ediblər ki, Rusiya işğalın əvvəlindən Çindən hərbi təchizat tələb edib. Lakin rəsmilər hansı materialların tələb olunduğunu açıqlamayıblar. Məlumata görə, Çin kömək etməyə hazırlaşır. Qeyd olunur ki, Çin indiyədək Rusiyanın işğalına qarşı neytral qalmağa çalışıb. Xəbərin "Financial Times" və "New York Times" qəzetlərində dərcindən sonra Çinin ABŞ səfirliyi bəyanat verərək, müharibənin nəzarətdən çıxmasının qarşısını almaq üçün səy göstərildiyini qeyd edib.

**Vaşinqton səfirliyinin sözçüsü Liu Penqyunun sözlərinə görə, Ukraynadakı vəziyyət əslində narahatedicidir:** "Hazırda əsas prioritet gərginliyin artmasının qarşısını almaq və ya hətta onun nəzarətdən çıxmasının qarşısını almaqdır". ABŞ isə Çinə Moskvaya yardım etməməsi ilə bağlı xəbərdarlıq edib. Ağ Evin Milli təhlükəsizlik müşaviri Ceyk Sullivan Pekinlə birbaşa şəxsi əlaqədə olduqlarını bildirib və Rusiyaya dəstəyin nəticələrinin olacağını vurğulayıb. Sallivan bildirib ki, dünyanın heç bir ölkəsi Rusiyanın bu iqtisadi sanksiyalarda xilaskar olmasına icazə verməyəcək.

Çin Xarici İşlər Nazirliyinin sözçüsü isə ABŞ rəsmilərinin Rusiyanın Çindən hərbi təchizat istəməsi ilə bağlı açıqlamalarının "dezinformasiya" olduğunu müdafiə edib.

**Kembric Universitetinin professoru Mark Veller qeyd edib ki, Çin seçim qarşısındadır. Onun sözlərinə görə, Pekin administrasiyası indi qərar qəbul etməlidir və münaqişənin sona çatması üçün danışıqların dəstəklənməsində xüsusilə güclü rol oynaya bilər.** Ukraynanın işğalı ilə əlaqədar Qərb ölkələri Rusiyanı banklar arasında pul köçürmələrinin düzgün həyata keçirilməsinə imkan verən banklararası təhlükəsiz mesajlaşma kimi tanınan SWIFT sistemindən çıxarıblar.

*Rusiya Mərkəzi Bankının Amerika, İngiltərə, Fransa, Almaniya, İtaliyadakı Rusiya banklarındakı əmanətləri də dondurulub. Rusiya Mərkəzi Bankının həm Rusiyada, həm də bir sıra digər ölkələrdə ümumilikdə 630 milyard dollar depozitinin olduğu təxmin edilir.*

**İsmayıl**



**Prezident İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.**

**Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edilib, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təması mövzusunda müzakirə aparılıb.**

Hərbi, hərbi texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirilib, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. Görüşdə Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparılıb, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səyləri yüksək qiymətləndirilib.

# Zəngəzur dəhlizi yaxın günlərdə açılacaq

## Dünyada vəziyyət elə inkişaf edir ki, gec-tez Ermənistan özü buna məcbur olacaq

Sonda Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olunub və Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət edib.

**İki lider arasında baş tutan görüşün Zəngəzur dəhlizi üçün də önəmini "Şərq"ə izah edən siyasi ekspert Əlimusa İbrahimov bildirib ki, dəhlizin açılması Ermənistan tərəfinin günahı ucbatından gecikdirilir:**

"Eyni zamanda, bu məsələdə Ermənistan tərəfinə lobbiçilik edən Rusiya idi. Amma indi Rusiya ilə vəziyyətin necə olduğu məlumdur. Ukrayna müharibəsi fonunda Rusiyanın təsiretmə mexanizmi müəyyən qədər azalıb. Bu məsələlər Ermənistan ilə Azərbaycan arasında qalıb. Türkiyə də müəyyən qədər təsir göstərib, yardım edir". Siyasi ekspertin fikrincə, son zamanlar baş verən hadisələr də dəhlizin açılışının gecikməsinə səbəb olub:

"Söhbət gedir ki, bu dəhlizin açılmasında hələ razılaşmalar getmir, söhbətlər və məsləhətləşmələr aparılmır. Təbii ki, mən bunu, əsasən, Ukrayna-Rusiya müharibəsi ilə bağlayıram. Mənə elə gəlir ki, Ermənistana bunu saxlamaqla bağlı Rusiya tərəfindən müəyyən qədər təsir göstərilir. Çünki Rusiya da öz şərtləri daxilində bu dəhlizin açılmasına maraqlıdır. Rusiya da istəmir ki, Ermənistan birbaşa Azərbaycan və Türkiyə ilə danışsın və dəhlizin açılmasında müəyyən addımlar atsın".

**Ə.İbrahimov bildirib ki, dəhliz yaxın zamanda açılacaq:**

"Türkiyə ilə Azərbaycan prezidentlərinin görüşünə gəldikdə isə bu görüş regionda gedən proseslərdə Türkiyənin iştirakının artırılması ilə bağlı çox mühüm addım idi. Düşünürəm ki, bu, eyni zamanda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin yaxşılaşdırılması üçün vacib idi. O cümlədən, zənnimcə, yaxın günlərdə artıq dəhlizin açılması haqqında müəyyən qərarlar qəbul ediləcək. Ya da ki, söhbətin qaldığı yerdən başlaması haqqında bizə məlumatlar daxil olacaq. Heç bir vəchlə dəhlizin açılması təxirə salına bilməz. Gecikdirilə bilər, lakin qarşısını almaq mümkün deyil. Dünyada vəziyyət elə inkişaf edir ki, gec-tez Ermənistan özü buna məcbur olacaq. Düşünürəm ki, Azərbaycan Prezidenti və Türkiyə Prezidenti vəziyyətə uyğun olaraq adekvat addımlar atmağa qadirdilər. Onların cəhdləri yaxın günlərdə nəticə verəcək".

**Çimnaz**



# Ermənistan normallaşma prosesinə məcbur edilib

## İrəvan hökuməti müharibədən sonrakı reallıqları düzgün qiymətləndirə bilmədi

**Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində addımlar atılır. Bu çərçivədə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Antalya Diplomatiya Forumu çərçivəsində Ermənistanın Xarici işlər naziri Mirzoyan ilə görüş keçirib.**

Görüş iki ölkə arasında uzun fasilədən sonra xüsusi nümayəndələrdən sonra nazirlər səviyyəsində keçirilən ilk görüşdür. Görüşdən sonra açıqlama verən nazir Çavuşoğlu çox məhsuldar və konstruktiv görüş keçirdiklərini bildirib: "Prezidentimiz Ərdoğan və Baş nazir Paşinyanın müsbət mesajlarından sonra xüsusi nümayəndələrimizi təyin etdik. Xüsusi nümayəndələrimiz Moskva və Vyanada iki dəfə görüşdülər. Münasibətlərimizin tam şəkildə normallaşması üçün atılacaq addımları müzakirə etdilər. Cənubi Qafqazda sabitlik və sülh üçün çalışırıq. Bu istiqamətdəki səylərimizə hər yerdən dəstək alırıq. Azərbaycan da atılan addımlardan və başda Türkiyə ilə Ermənistan arasında normallaşma prosesindən məmnundur. Prosesi davam etdirəcəyik. Xarici işlər naziri ilə də bu məsələdə razılığa gəlmişik".

Ermənistanın Xarici işlər naziri Mirzoyan da Türkiyə ilə münasibətlərin normallaşması üçün səy göstərdiklərini bildirib və bölgədə sülh və sabitlik üçün səy göstərməkdə qərarlı olduqlarını söyləyib.

Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə Xüsusi Nümayəndəsi Toivo Klaar Çavuşoğlu-Mirzoyan görüşünün ümidverici olduğunu vurğulayıb: "Antalya Diplomatiya Forumu çərçivəsində Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu və Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan arasında görüş ümidvericidir. Avropa İttifaqı Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılmasını tam dəstəkləyir".

**Tərəflərin təmasını "Şərq"ə dəyərləndirən beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, Ermənistan tərəfi normallaşma prosesinə məcbur edilib. Analitik vurğulayıb ki, İrəvan hökuməti müharibədən sonrakı reallıqda düzgün addım ata, prosesləri qiymətləndirə bilmədi:** "Azərbaycan tərəfi məğlub Ermənistanın üzləşdiyi problemləri nəzərə alaraq, İrəvana kifayət qədər zaman verdi. Sülh prosesinin imzalanması, danışıqlar və müzakirələr üçün bir qədər gözlədi. Amma ötən müddət ərzində Ermənistan tərəfi təxribatlarından geri durmadı. Prosesləri manipulyasiya etdi, xaricdən dəstək axtarışına çıxdı. Aydın oldu ki, Ermənistan tərəfi getdikcə sülh situasiyasından uzaqlaşır. Rəsmi Bakı belə məqamda Zəngəzur dəhlizi ilə bağlı çox unikal bir gediş etdi və bütün hallarda Ermənistanı oyundan kənar vəziyyətə saldı. Blokadada qalmış Ermənistan üçün daim "nəfəslik" rolunu oynamış İran da Azərbaycan cəbhəsində yer aldı. Bir müddətdir Türkiyə ilə Ermənistan arasında danışıqlar gedir, normallaşma prosesi müzakirə olunur, sərhədlərin açılması məsələsi gündəmə gətirilir və s. Son günlər isə İrəvan özü bu istiqamətdə aktivlik nümayiş etdirir. Bu da onu göstərir ki, dalana dirənmiş Ermənistan gec olmadan çıxış yolu axtarır, Türkiyə və Azərbaycanla münasibətlərin qurulmasında maraqlı olduğunu göstərir. Artıq rəsmi Bakıya yönəlik sülh mesajları da gəlməkdə, Azərbaycanın şərtləri müzakirə olunmaqdadır. Görünən odur ki, İrəvan hazırda rəsmi Bakı və Ankaradan daha maraqlı tərəf kimi çıxış etməkdədir".

> "Rəsmi Bakı belə məqamda Zəngəzur dəhlizi ilə bağlı çox unikal bir gediş etdi və bütün hallarda Ermənistanı oyundan kənar vəziyyətə saldı"

**İsmayıl Qocayev**

# Saakaşvilinin çağırışları heç bir nəticə verməyəcək

## Gürcüstanda ictimai-siyasi sabitlik yüksək səviyyədə qorunur

**Gürcüstanın eks-prezidenti Mixeil Saakaşvili ötən gün axşam xəstəxanaya aparılıb.**

**Bu barədə eks-prezidentin özü feysbuk səhifəsində məlumat yayıb.**



Müxtəlif müayinələrdən keçən sabiq dövlət başçısının sözlərinə görə, o, ətraflarını artıq hiss etmir və beynində müxtəlif zədələr var: "Həkimlər dərhal müalicəyə başlamağı məsləhət görüblər. Əks halda xəstəliyim sürətlə ağırlaşacaq, əlillik və ya ölümlə nəticələnəcək".

Qeyd edək ki, M.Saakaşvili ötən ilin sentyabrın 28-də Gürcüstana qeyri-qanuni yolla daxil olub və oktyabrın 1-də Tbilisidə yaxalanıb. Eks-prezident hazırda Rustavi şəhərindəki 12 saylı həbsxanada saxlanılır.

Saakaşvilinin dəstəkçiləri Avropa ölkələrinə müraciət edərək sabiq prezidentin azadlığa buraxılması üçün hökumətə təzyiq göstərilməsini tələb ediblər.

Qərbin bu barədə atacağı addımlar Gürcüstan prezidentinin qərarını dəyişə bilərmi?

**Gürcüstandakı vəziyyəti "Şərq"ə təhlil edən politoloq Tural İsmayılovun sözlərinə görə, Qərb ümumiyyətlə, bu məsələyə qarışmamalıdır.**

"Azərbaycan Gürcüstanla bir çox sahələrdə əməkdaşlıq edir. İki ölkənin əlaqələri kifayət qədər yüksək qiymətləndirilməlidir. Bu baxımdan Gürcüstandakı ictimai sabitlik və ictimai-siyasi proseslərin idarəolunan məcrada olması bizim maraqlarımıza xidmət edir. Gürcüstanda siyasi keçmişi, siması olan şəxsin həbsi ilə bağlı qərarların verilməsi ölkənin daxili işidir. Kənar ölkələr Gürcüstanın hüquq-mühafizə və güc orqanlarının işinə qarışmamalıdır. Saakaşvilinin azadlığı ilə bağlı Qərbə edilən çağırışlara baxmayaraq, Prezident Zurabişvili onun həbsdən azad olunmayacağı ilə bağlı qəti şəkildə mövqeyini ifadə etdi. Hazırda eks-prezidentlə bağlı iş aparılır və onun həbsinin detalları ölkə ictimaiyyətinə açıqlanıb. Bu baxımdan Saakaşvilinin azadlığa buraxılması ilə bağlı Qərbə çağırışlar edilməsi doğru deyil. Gürcüstan Prezidenti Qərbdən gələn çağırışlara və təzyiqlərə boyun əyməyəcək. Buna görə də edilən müraciətlər keçmiş prezidentin həbs müddətində hansısa dəyişiklik edə bilməyəcək".

**Uzun müddət sonra yenidən Gürcüstan gündəminə düşən Saakaşvilinin bu çıxışı onun tərəfdarlarını fəallaşdıra bilərmi? Ekspert buna inanmır:**

"Gürcüstan rəngli inqilab senarilərinin reallaşdırıldığı ilk ölkələrdən biri olub. İndi də Qərb imperializmi müxtəlif qeyri-hökumət və bəzi "media təşkilatları" vasitəsilə ölkədəki ictimai-siyasi sabitliyi laxlatmağa çalışır. Həbs məsələsindən də daxildə etiraz aksiyaları yaratmaq üçün istifadə edə bilərlər. Ancaq bu gün Gürcüstanda ictimai-siyasi stabillik yüksək səviyyədə qorunur. Buna görə də Qərbin istədiyi senari Saakaşvili üzərində gerçəkləşməyəcək".

**Sənan İsmayıl**

# Putin-Zelenski görüşü 10 gün sonra baş tuta bilər

## "Cəbhədə hansı tərəf güclü olacaqsa, masaya da həmin ölkənin rəhbəri daha sağlam oturacaq"



**Türkiyənin XİN başçısı Mövlud Çavuşoğlu martın 13-də mətbuat konfransı keçirib. O, konfrans zamanı martın 6-da Rusiya Prezidenti Valdimir Putinlə Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan arasında olan telefon danışığına diqqət çəkib.**

M.Çavuşoğlu bildirib ki, danışıq zamanı Putin Ərdoğana Ukrayna Prezidenti Zelenski ilə görüşməyinin əleyhinə olmadığını söyləyib:

"Biz Rusiya və Ukrayna liderlərinin görüşünün təşkili üçün səy göstəririk. Putin bizim prezidentlə telefon danışığı zamanı belə görüşün əleyhinə olmadığını deyib. Ukrayna tərəfi də hazırdır".

**Hərbi-siyasi ekspert Həşim Səhrablı gözlənilən Putin-Zelenski görüşündən "Şərq"ə danışarkən bildirib ki, hazırkı stiuasiyada tərəflərin yaxın günlərdə görüşməsi mümkün görünmür:**

"Bu, ən azı bir həftə və ya on gün sonra ola bilər. Çünki yalnız bu müddət ərzində tərəflərdən biri müharibədə qalib gəlmə imkanlarının doğru dəyərləndirməsini aparacaq.

Artıq müharibədən 15 gündən çox zaman keçib. Tərəflər hardasa ikisi də eyni nisbətdə davam edirlər. Hazırki duruma uyğun olaraq hansı tərəfin məğlub, hansının qalib olacağını demək çətindir. Döyüşlər son günlər belə davam edəcək. Sonra isə tərəflərdən biri artıq qalib gəlmə ehtimalının zəifliyini başa düşəcək. Belə olduqda prezidentlərin görüşlərini gözləmək mümkündür".

*Ekspertin fikrincə, tərəflər arasında baş tutması ehtimal olunan görüş yekun nəticələrin əldə edilməsinə istiqamətlənmiş bir qarşılaşma olacaq:*

"Burda da tərəflər bir-biri ilə kompromisə girərək, bir-birinə güzəştlər edərək yekun nəticələr əldə edəcəklər. Amma hər an mövcud vəziyyət dəyişə də bilər. Hazırda Rusiyanın imkanları nə qədər məhdudlaşmağa doğru getsə də, son günlər onun Çindən və digər ölkələrdən hərbi dəstək istəməsi ilə bağlı xəbərlər eşidirik. Bunlar rəsmi məlumatlar olmasa da, Kremlin belə bir addım atması mümkündür. Çünki hücum edən tərəf Rusiyadır.

Döyüş qaydalarına görə də hücum edən tərəfin qüvvələri müdafiə olunan tərəfin qüvvələrindən daha təz tükənir. Hazırkı durumda Rusiyanın qələbə qazanması üçün onun indikindən üç və ya dörd dəfə daha artıq canlı və texniki qüvvə ilə hücuma keçməsi lazımdır. Onun hərbi gücü isə buna imkan vermir. Bilirik ki, Rusiyanın öz ərazləri də böyükdür. O, öz sərhədlərini də nəzarətsiz buraxa bilməz".

*H.Səhrablının qənaətincə, cəbhədə hansı tərəf güclü olacaqsa, masaya da həmin ölkənin rəhbəri daha sağlam oturacaq:*

"Nəticədə həmin güclü tərəfin istəkləri daxilində müzakirələr davam etdiriləcək".

**Günəş Mərd**

# Paşinyan Moskva ilə Paris arasında vurnuxur

## Görünür, rəsmi İrəvana sponsorları yenə hansısa yalan vədlər veriblər



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov rəsmi Bakının Ermənistana beş maddədən ibarət təklif verdiyini bəyan edib və bunun məqsədlərini açıqlayıb. Nazir bildirib ki, Azərbaycan Ermənistana sülh müqaviləsi üzərində işləməyi təklif edib. C.Bayramov vurğulayıb ki, müharibədən sonra Azərbaycan Ermənistana sülh müqaviləsi üzərində işləməyə hazır olduğunu deyib.**

Ötən bir il ərzində bir neçə dəfə bu təklif gündəmə gətirilib: "Azərbaycan beynəlxalq münasibətlərin məsuliyyətli üzvüdür. Biz həm ikitərəfli münasibətlərin inkişaf etməsində, həm də daha geniş mənada bölgədə sülh, inkişaf və tərəqqinin təmin edilməsi üçün qonşu ölkələr arasında münasibətlərin qurulmasında maraqlıyıq. İndiki vəziyyət, yəni Azərbaycanla Ermənistan arasında faktiki olaraq münasibətlərin, əlaqələrin olmaması, düşmənçiliyin saxlanması nə Azərbaycan, nə Ermənistan, nə də region üçün fayda gətirəndir. Bundan irəli gələrək Azərbaycan bu addımı atdı. Bir ilə yaxın müddət ərzində Azərbaycan Ermənistandan heç bir konkret cavab almayıb. Bu məsələdə Azərbaycan tərəfi olaraq növbəti addımı atıb xoş niyyətimizi göstərdik". Ermənistana irəli sürülən beş maddəlik təklifin əsas mahiyyəti -sərhədlərin, suverenliyin qarşılıqlı tanınması, ərazi iddialarına son verilməsi, təhlükəsizliyə təhdid yaradılmaması, diplomatik münasibətlərin qurulması və kommunikasiyaların açılışından ibarətdir. Bəyan edilib ki, iki dövlət məhz bu baza prinsiplər əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər.

Politoloq Sədrəddin Soltan deyib ki, bütövlükdə Qafqaz regionunda sabitlik və təhlükəsizlik Cənubi Qafqazda sülh, sabitlik və əməkdaşlıqdan asılıdır. Analitikə görə, Ermənistanın pozuculuq fəaliyyətinə son verməsi, region dövlətləri ilə dinc yanaşı yaşama prinsiplərinə əsasən davranması mühüm şərtlərdən sayılır: "2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalayan rəsmi İrəvan sənədin müddəalarına əməl etmir. Bu davranışı ilə regionda sabitliyi təhdid edir. Görünür, rəsmi İrəvana sponsorları yenə hansısa yalan vədlər veriblər. Bir əsrdən artıq yalanlar və xülyalarla böyüyən nəslə 44 günlük müharibə gerçəkliyi başa saldı. Dünyadakı və keçmiş sovet məkanındakı mövcud vəziyyətdən Ermənistan hələ də nəticə çıxara bilmir. Ölkənin Baş naziri Nikol Paşinyan Parislə Moskva arasında vurnuxur. Qərbə vədlər verib Rusiyanın ətəyindən yapışır. Azərbaycan qarşısında əsassız iddialarla çıxış edən, 30 il ərzində keçmiş münaqişənin həllinə yardım etməkdə acizlik göstərən, yaxud yardım etmək istəməyənlər yenə də Ermənistanın başını tumarlayırlar. Bu sığal, tumar isə rəsmi İrəvanın təkliflərə cavab verməməsinə imkan yaradır. Azərbaycanın sülhsevər və əməkdaşlıqla bağlı təkliflərinə Ermənistanın müsbət cavab verməsi perspektivdə ikitərəfli münasibətlərin inkişafına, Cənubi Qafqazda sülh, əmin-amanlığa və firavanlığa təkan verər. Azərbaycan tərəfi bu addımı ilə xoş niyyətlərini Ermənistan və beynəlxalq ictimaiyyətə açıqlayır. Rəsmi Bakı bununla həm də beynəlxalq hüquqa hörmətini bir daha sərgiləyir. İrəli sürülən təkliflər də dövlətlərarası münasibətlərin normallaşması üçün atılan vacib addımlardan sayıla bilər. Rəsmi İrəvanın 5 təklifə müsbət münasibəti, Azərbaycan və Ermənistan arasında sülh regionda etimada dəstək olar. Bu məsələ Cənubi Qafqazda risk amilinin də aradan qalxmasına yardım edər".

S.Soltan hesab edir ki, Azərbaycanın Ermənistana 5 maddəlik təklifini regionda təhlükəsizlik, əməkdaşlıq və sülh üçün atılan addımlar kimi dəyərləndirmək olar: "Rəsmi İrəvanın bu sənədə cavabı gecikdirməsi ilk növbədə Ermənistanın ziyanınadır. Çünki kapitulyasiya aktını imzalayandan sonra regionda əməkdaşlıq istiqamətində heç bir cəhd göstərməyib. Bu istiqamətdə durğunluq, Moskva ilə Paris arasında çabalamaq İrəvanı böhrana sürükləyər. Belə vəziyyət isə ölkədəki siyasi təşəbbüsün başqa qüvvələrin əlinə keçməsinə şərait yaradır. Bu baxımdan Ermənistan hökuməti 5 maddəlik təklifi tez cavablandırmaqla qarşıda onu gözləyən xoşagəlməz hadisənin qarşısını ala bilər. 5 təklif Nikol Paşinyanın passivləşən "addımı"nın hərəkətverici qüvvəsi olar".

**İsmayıl Qocayev**



**"Rusiya Prezidenti Vladimir Putinin Ukraynaya Yaxın Şərqdən "könüllülərin" cəlb edilməsi qərarının arxasında bəzi səbəblər dayanır". Bu barədə "Şərq"ə politoloq Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Rusiya ordusu Ukraynada güclü müqavimətlə üzləşib.**

# Ukrayna terrorçuların məskəninə çevriləcək

## "Kremlin Avopada Qərb ölkələrinə ikinci Suriya yaratmaq istəyi aşkardır"

Kreml Ukrayna ordusunun və cəmiyyətinin Rusiya ordusuna qarşı bu şəkildə müqavimət aparacağını gözləmirdi: "Görünür, Rusiya kəşfiyyatı Kremli sahibini müharibədən öncə inandırıb ki, döyüşlər cəmi bir neçə gün çəkəcək və Kiyev dərhal təslim olacaq, Ukrayna prezidenti postunu qoyub qaçacaq. Proqnozlar yanlış çıxdı və iki həftədən çox davam edən müharibədə Rusiya ordusu ciddi itkilər verir. Döyüşmədən təslim oan rusiyalı hərbçilərin sayı artır. Belə vəziyyətdə Putin onun inamını doğrultmayan Müdafiə naziri Sergey Şoyqunun məsləhəti ilə Yaxın Şərqdən "müttəfiqlərini" cəlb etməyi məsləhət bilib. Əslində bu qərar Kreml sahibinin Ukraynada Rusiya ordusunun ağır durumda olmasının etirafıdır. İkincisi, Ukrayna tərəfdən də döyüşmək istəyən könüllülərin sayı artıb. Dünyanın müxtəlif ölkələrindən Ukraynaya könüllü axını var, onların içərisində peşəkar hərbçilər də var. Həmin könüllülər döyüşlərdə Rusiya ordusunun itkilərini artıracaqlar. Putin də eyni addımı ataraq beynəlxalq aləmə bu mesajı verir: "Siz tərəfdə muzdlular vuruşursa, biz tərəfdən də muzdlular olacaq".

Kreml Rusiya tərəfdən döyüşəcək könüllülərin guya pulsuz savaşacaqlarını bildirib. Buna kimsə inanmaz. Ukrayna hakimiyyəti gizlətmir ki, könüllülərə məvacib veriləcək. Rusiya da onlar tərəfdən savaşacaq könüllülərə - muzdlu döyüşçülərə valtuya ödəyəcək. Dünyanın heç bir yerində muzdlular havayı döyüşmürlər".

E.Şahinoğlu qeyd edib ki, Sergey Şoyquya görə, Yaxın Şərqdən 16 mindən çox könüllü Rusiya tərəfdən döyüşlərə qatılmaq istəyir: "Bu o deməkdir ki, Kreml könüllü məsələsini uzun müddətdir müzakirə edir, əks halda 16 min rəqəmi peyda olmazdı. Bəs Rusiyanın "könüllü" dediyi döyüşçülər kimlərdir? Kreml böyük ehtimalla Suriyada Bəşər Əsəd tərəfdə savaşan qrupları nəzərdə tutur. Bunların içərisində "Hizbullah" da var. Bu qruplaşma Bəşər Əsədə dəstək verən əsas silahlı qruplaşmadır, mərkəzi Livanın paytaxtı Beyrutdadır. Livanın özündə iqtisadi vəziyyət ağırdır, "Hizbullah"ı illərdir maliyyələşdirən İranın iqtisadi durumu normal sayıla bilməz. Ona görə də "Hizbullah" döyüşçüləri və onların müttəfiqləri maliyyə vəziyyətlərini düzəltmək üçün Ukraynada döyüşmək təklifini geri çevirməzlər. Beləliklə, əvvəlki proqnozlarımıza da dayanaraq Kremlin Avopada Qərb ölkələrinə ikinci Suriya yaratmaq istəyi aşkardır. Ukraynadakı savaş beynəlmiləl xarakter daşımağa başlayıb. Ukraynada Rusiya ilə Qərbin maraqları kəsişdiyi kimi müxtəlif millət və silahlı qruplaşmaların, o cümlədən terrorçuların məskəninə çevriləcək. Kremlin siyasətini bu cümlə ilə izah etmək olar: "Bizi batırmaq istəyirsinizsə, biz də Sizi (Ukrayna və Qərbi) batıracağıq".

**İsmayıl**



# Xankəndi işıqsız, qazsız, susuz qalıb

## Ermənilər də artıq vəziyyətə görə separatçı rejimin "rəhbərliyini" ittiham edirlər

**Rusiyada erməni diasporu (erməni-rus təşkilatlarının koordinasiya şurası) bu ölkənin rəhbərliyinə və Müdafiə Nazirliyinə yazılı müraciət edib.**

Ermənilər Qarabağda yaranmış qaz, elektrik və su probleminə görə Azərbaycanı ittiham edir və həlli üçün Rusiya rəhbərliyindən kömək istəyirlər.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, bu müraciətdən iki nəticə çıxır. Birincisi, müharibədən sonra rusların dəstəyi ilə ayaqda qalan separatçı-terrorçu rejim indi çətin vəziyyətə düşüb və diaspor vasitəsilə dəstək axtarışındadır. İkincisi, Ukraynada müharibə aparan Rusiyanın Qarabağa diqqəti azalıb:** "Diaspor erməniləri bu məsələni Putinin yadına salmağa çalışırlar. Burada rusların Ukraynadakı işğal hücumunun nəticə verməməsinin bizim xeyrimizə olduğu daha aydın şəkildə görünür. Vəziyyətin bu cür davam etməsi erməni əhalisinin separatçı-terrorçu rejimə qarşı etirazını daha da körükləyir. Qəza nəticəsində baş vermiş problemlərə görə dünənə qədər Azərbaycanı ittiham edən ermənilər və erməni mediası bu gündən etibarən paralel olaraq separatçı rejimin "rəhbərliyini" də tənqid edirlər. Bizim maraqlarımız baxımından əsas problem "Azərbaycan hücum edir" tipli təbliğatın aparılmasıdır. Xüsusilə mobil rabitənin və internetin işlək olması ermənilərin bu imkanlarını genişləndirir. İstisna deyil ki, erməni diasporu yaxın günlərdə Avropada da "Qarabağda ermənilər fəlakət yaşayır" kimi kampaniyaya başlaya bilər".

**İsmayıl**

# AKP gücünə güc qatır

## Tansu Çiller Ərdoğanın razılığı ilə siyasətə dönür

**Türkiyənin keçmiş baş naziri Tansu Çiller yenidən siyasətə qayıdır. Keçmiş hökumət rəhbəri Türkiyənin Demokrat, Ədalət və Doğru Yol partiyalarına təklif göndərib.**



T.Çiller sözügedən partiyaların sədri olmağı təklif edib. Hər üç partiyanın məsələyə müsbət yanaşmadığı bildirilir.

**Politoloq Əhəd Məmmədli Tansu Çillerin siyasi həyata qayıtmasını "Şərq"ə şərh edərkən bildirib ki, keçmiş siyasətçilərin siyasətə qayıtması o qədər də uğurlu nəticə getirməyib:**

"Misal olaraq, Rusiyada Mixail Qorbaçovun prezident seçkilərinə namizədlik verməsi çox cüzi səs salmışdı. Bilirsiz, "Evet\Hayır" səsverməsində də Tansu Çiller iqtidarı dəstəkləyib.

Ola bilsin ki, Ərdoğanla razılaşdırılıb ki, gələcəkdə Tansu Çiller və tərəfdaşları onu dəstəkləyəcək.

Çünki artıq müxalifət də Ərdoğana qarşı birləşib.

Buna qarşılıq olaraq, "AKP"də də özünə loyal olan qüvvələri səfərbər edir və Türkiyə siyasi səhnəsinə qaytarır ki, 2023-cü ildə baş tutacaq prezident seçkilərində Ərdoğana dəstək olan koalisiya qursun". Politoloqun fikrincə, bu, T.Çiller ilə Ərdoğanın razılaşdırılmış planıdır.

**Çimnaz Şahlar**



# Abxaziyada keçirilən "parlament seçkiləri" qanunsuzdur

## Azərbaycan indiki məqamda doğru mövqedədir

**Abxaziyada keçirilmiş qondarma "parlament seçkiləri" barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) rəsmi məlumat yayıb. Bəyanatda deyilir:**

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir. Eyni zamanda 12 mart 2022-ci il tarixində Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma "parlament seçkiləri"ni, həmçinin onların nəticələrini tanımır. Azərbaycan XİN Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsinin vacib olduğunu hesab edir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan indiki məqamda doğru mövqedədir:**

"Ölkəmizin keçmişdəki ərazi bütövlüyü məsələsi həll olunub. Digər dövlətlərin də suverenlik mövzusuna həssaslıqla yanaşırıq. Ukrayna, Gürcüstan və başqa dövlətlərin ərazi bütövlüyünü birmənalı olaraq dəstəkləyirik. Hətta vaxtilə Kosovada türk sülhməramlı kontingentinin tərkibində Azərbaycan hərbçiləri də var idi. Rəsmi Priştinanın müstəqilliyi tanınanda silahlı qüvvələri də çıxartdıq. Çünki Serbiyanın ərazi bütövlüyünü dəstəkləyirdik. Eləcə də Abxaziyada keçirilən "parlament seçkiləri" qanunsuzdur, onu tanımırıq. Əvvəl Qarabağda seçkilər keçiriləndə Gürcüstan XİN də oxşar bəyanat verib. Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyib. Həmçinin Ukraynanın müstəqilliyini tanıyırıq. Ermənistan Gürcüstanı guya dost dövlət adlandırır. Amma rəsmi İrəvandan bu yöndə heç bir açıqlama yoxdur".

**Sücayət Mehti**

# Zaman xeyrimizə işləyir

## Rusiya ilə yanaşı Ermənistan da çökür!

**44 günlük müharibə Ermənistanın uzun illər, istismar etdiyi Azərbaycan torpaqlarında qanunsuz olaraq taxıl əkini ilə məşğul olmasına da son qoydu.**

Bu isə Ermənistan dövlətinin taxıla olan ehtiyacının artmasına, dolayısı ilə taxılın əsas ixrac yeri olan Rusiyadan asılılığının artmasına gətirib çıxarıb.

Ötən günlərdə məsələ ilə bağlı danışan erməni deputat Vaqe Akopyan bildirib ki, rəsmi Moskva tərəfindən taxıl ixracının məhdudlaşdırılması ilə bağlı verdiyi proqnozlar reallığa çevrilib:

"Rusiyaya qarşı sanksiyalar nə qədər ağırlaşsa, Ermənistana da o qədər ağır təsir göstərəcək. Bu gün biz Rusiyadan asılı vəziyyətdəyik".

**Ermənistanın mövcud vəziyyətini "Şərq"ə təhlil edən iqtisadçı-ekspert Natiq Cəfərli qeyd edib ki, rəsmi İrəvan iqtisadiyyatının 70 faizi Rusiyadan asılıdır:**

"Həmçinin oraya gələn valyuta daxilolmalarının yarısı da Rusiya ilə bağlıdır. Söhbət təkcə ticarət münasibətlərindən yox, həm də Rusiyada yaşayan miqrantların 100 milyonlarla dolları Ermənistana göndərməsindən gedir".



**"Məsələlərin həlli üçün konkret məqamlar var ki, onlar üçün uyğun vaxtı gözləməliyik"**

*İqtisadçı-ekspert Ermənistan dramı və iqtisadiyyatının vəziyyətinin getdikcə çətinləşdiyini vurğulayıb:*

"Sanksiyalar tətbiq edilən zaman ən çox reaksiya verən milli valyutalardan biri Ermənistan dramı oldu. Yəni rus rublu ilə bərabər dəyərdən düşməyə başladı. Bu onu deməyə əsas verir ki, iki ölkənin iqtisadiyyatları həddindən artıq bir-birinə bağlıdır. Rusiyada yaşanacaq iqtisadi böhran rəsmi İrəvana da sıçrayacaq. Kifayət qədər ciddi məsələdir".

N.Cəfərli bildirib ki, qondarma rejimin nümayəndələrini rus "sülhməramlıları" mandatlarına uyğun olmayaraq faktiki olaraq tanıyıb:

"Onlarla görüşüb danışır, məsələləri həll edir. Rusiyanın zəifləməsi nəinki, bölgəmizə, o cümlədən dünyaya təsir edəcək. Yaxın gələcəkdə böyük sürprizlər olmazsa, şimal qonşumuzun siyasi və hərbi zəifləməsi getdikcə bölgədə dayaqlarının itirilməsinə də səbəb ola bilər. Bu da Azərbaycana əlavə üstünlüklər verir. Yeni müqavilə şərtlərinə uyğun olaraq bu daha çox Rusiyanın öz sülhməramlı missiyasına uyğun davranmağını tələb edə bilərik".

**Ekspert Azərbaycanın gözlənilən situasiyalarda hansı addımları ata biləcəyini də izah edib:**

"Əgər bizim istəklərimiz yerinə yetirilməzsə, ölkəmiz suveren dövlət kimi öz ərazisində istədiyi addımı, o cümlədən antiterror əməliyyatlarını da başlada bilər. Amma indiki şəraitdə gözləmə metodu daha yaxşıdır. Zaman iqtisadiyyat, demoqrafiya, hərbi güc və beynəlxalq sanksiyalar cəhətdən Azərbaycana işləyir. Məsələlərin həlli üçün konkret məqamlar var ki, onlar üçün uyğun vaxtı gözləməliyik".

**Cəmilə Əzim**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi



## Diaspor təşkilatlarımızın fəallığı təqdir olunmalıdır

### Ukraynadakı soydaşlarımızın təxliyəsi üçün dövlətlə bərabər xaricdəki təşkilatlarımız da bütün lazımi işləri görür

**Ukraynada yaranmış gərgin vəziyyətlə əlaqədar soydaşlarımızın təxliyə edilməsində diaspor təşkilatlarımızın fəallığı ilk günlərdən hiss edilməyə başladı. Əlbəttə ki, bu, Azərbaycan dövlətinin diaspor quruculuğu sahəsində apardığı məqsədyönlü siyasətin nəticəsidir.**

Eyni zamanda xarici ölkələrdə yaşayan və işləyən soydaşlarımızın həmrəyliyi, xalqımızın yardımlaşma, dara düşənə kömək əli uzatmaq kimi yüksək keyfiyyətlərə malik olması təxliyə prosesinə müsbət təsirini göstərdi. Diasporla İş üzrə Dövlət Komitəsi Ukraynaya qarşı hərbi əməliyyatlar başladığı zaman açıqlama yayaraq bildirdi ki, komitə Ukrayna ətrafında yaranmış vəziyyətlə əlaqədar diaspor təşkilatları və diaspor fəalları ilə sıx əlaqədədir və soydaşlarımızın Ukraynadan təxliyə edilməsi üçün Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə koordinasiyalı şəkildə fəaliyyət göstərir. Bu məlumatdan sonra Ukrayna Azərbaycanlıları Radasında yaradılan operativ qərargaha yüzlərlə Azərbaycan vətəndaşı təxliyə olunmaq üçün müraciət edib. Onların arasında Ukraynada təhsil alan azərbaycanlı tələbələr də vardı. Müraciət edənlərin Ukrayna ilə həmsərhəd ölkələr vasitəsilə Azərbaycana gətirilməsi planlaşdırıldı. Qeyd olundu ki, Ukraynada, xüsusilə gərginliyin hökm sürdüyü bölgələrdə yaşayan soydaşlarımız hər hansı problem yaranacağı təqdirdə, Ukrayna Azərbaycanlıları Radasında yaradılan operativ qərargahla (telefon nömrəsi və email ünvan göstərilirdi) əlaqə saxlaya bilər. Soydaşlarımıza hər cür mənəvi və informasiya dəstəyini təmin etmək məqsədilə operativ qərargah 24 saat fəaliyyət göstərir. Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirildi ki, təxliyə prosesi birbaşa Azərbaycan dövlət başçısı, Prezident İlham Əliyevin nəzarətindədir: "İlk saatlardan başlayaraq həmsərhəd ölkələrlə danışıqlar aparılıb. Azərbaycan vətəndaşları Moldova, Polşa, Slovakiya, Rumıniya, Macarıstan istiqamətindən keçərək Ukraynanı tərk edə bilərlər. Onlar üçün viza rejimi ləğv edilib. Soydaşlarımızın rahat təxliyəsi üçün çarter reysləri həyata keçiriləcək və onlar Azərbaycana gətiriləcək. Vətəndaşlarımız toplaşdıqca ölkəmizə Polşadan da çarter reysləri həyata keçiriləcək. Vətəndaşlardan xahiş olunur ki, sərhədi keçdikdən sonra bu ölkədəki səfirliklə əlaqə saxlasınlar".

Təxliyə prosesi bu şəkildə operativ, mərkəzləşmiş qaydada həyata keçirilməyə başladı. Təxliyə prosesinin təşkilində Ukraynada və qonşu ölkələrdə fəaliyyət göstərən yerli diaspor təşkilatları fəallıq nümayiş etdirdilər. Xüsusilə gərginliyin daha çox yaşandığı şəhərlərdə - Kiyev, Xarkov, Mariopolda yerli diaspor təşkilatlarımız çətin şəraitdə çalışmalı oldular. Təxliyə prosesi, sığınacaqdakı insanların, istər ukraynalı, istərsə də azərbaycanlı, fərq etmirdi, ağır durumda olanlara ərzaq, gündəlik tələbat mallarının çatdırılması işinə kömək edirdilər. Bu işdə Xarkov şəhərinin fəxri konsulu Əfqan Salmanovun fəaliyyəti xüsusi vurğulanır. Xarkov şəhərində vəziyyətin gərginliyinə baxmayaraq Azərbaycanın fəxri konsulluğu öz fəaliyyətini dayandırmadı, davam etdirdi. Xarkov şəhərindən ümumilikdə mindən artıq soydaşımız təxliyə edildi, soydaşlarımızdan Azərbaycana gələnlər də oldu, daha təhlükəsiz Lvov şəhərinə yola salınanlar da. Lvov şəhərindən vətəndaşlarımızın Ukrayna-Polşa sərhədini keçmələrinə kömək göstərildi. Eyni zamanda Xarkov şəhərində Azərbaycanın fəxri konsulu Əfqan Salmanovun Xarkov Cənub Dəmir Yolu İdarəsi və Xarkov Dəmir Yolu Vağzalı ilə apardığı danışıqların nəticəsində Azərbaycan vətəndaşlarının gündəlik təxliyəsi üçün yerlər ayrıldı. Xarkov şəhərini tərk etmək istəyən həmvətənlərimiz Dəmir Yolu Vağzalının növbətçi hissəsi və Azərbaycan Respublikasının Xarkov şəhərindəki fəxri konsulluğu ilə əlaqə saxlayaraq təxliyə olundular. Konsulluq əməkdaşları Azərbaycan mediasını və sosial medianı daim izləyərək burada yerləşdirilən müraciətlərə operativ şəkildə reaksiya verir, soydaşlarımızdan həmrəylik nümayiş etdirməyi və həmvətənlərimizi konsulluğa yönləndirmələrini xahiş edirdilər. Məlumdur ki, təxliyə prosesi üçün Xarkovdan xüsusi sərnişin qatarının hərəkəti də təşkil olundu. Həmin vətəndaşlarımız Fəxri konsulluğun Xarkov vilayət rəhbərliyinə və digər müvafiq qurumlara müraciəti əsasında pulsuz biletlərlə təmin olundu. Hətta konsulluq Xarkovdan gələn qatarla qardaş Türkiyə vətəndaşlarının da (185 nəfər) Azərbaycana təxliyəsini təşkil etdi. Ukraynadakı azərbaycanlı sürücülərin təxliyəsi prosesi də uğurla aparıldı. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatında qeyd olunurdu ki, Odessa şəhərində cəmləşən 6 yük avtonəqliyyat vasitəsinin Moldovaya keçidi təmin edilib. Nəqliyyat vasitələri Rumıniya ərazisinə keçid edəcək. Təxliyə prosesi Moldovadakı diplomatik korpusumuzun köməyi ilə həyata keçirilir. Kiyev, Xarkov və digər regionlarda cəmləşən sürücülərin təxliyəsi ilə bağlı da işlər görülür, onlarla mütəmadi olaraq əlaqə saxlanılır.

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Allahverənov "Şərq"ə açıqlamasında qeyd etdi ki, Ukraynadakı soydaşlarımızın təxliyəsi üçün dövlət səviyyəsində bütün lazımi işlər görülür:**

- Bu günlərdə Türkiyədə səfərdə olan Xarici işlər naziri Ceyhun Bayramov keçirdiyi mətbuat konfransında bildirdi ki, təxliyə prosesi davam edir. Bugünədək 10 minə yaxın soydaşımız Ukraynadan qonşu ölkələrə təxliyə edilib, sonra da Vətənə gətirilib. Nazir qeyd etdi ki, Prezident İlham Əliyev məsələ ilə bağlı tapşırıq verib. Dövlət başçısının tapşırığına əsasən indiyədək çarter reysi ilə 1111 nəfər vətəndaşımız Azərbaycana gətirilib. Təxliyə zamanı yaşlı insanlara, qadınlara, tələbələrə üstünlük verilir. Artıq avtobuslardan istifadə edib Azərbaycan tərəfinə keçənlərin sayı da 150-ni keçib. Bu onu göstərir ki, soydaşlarımızın təxliyəsi dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir və bununla bağlı da davamlı işlər aparılır.

**A.Allahverənov təxliyə prosesində yerli diaspor təşkilatlarının fəaliyyətinin əhəmiyyətinə toxundu:**

- Gərginlik başlayan gündən yerli diaspor təşkilatlarımızın fəallığının şahidi olduq. Doğrudur, bu proses çox çətin, ağırdır. Diaspor təşkilatları bacardıqca çox insana yardım etməyə çalışırdılar. İnsanlarla əlaqə saxlamaq, məlumat çatdırmaq ilk günlər çox çətin idi. İnsanlar sığınacaqlarda idi və informasiyaya çıxış imkanları demək olar, yox idi. Buna baxmayaraq yerli təşkilatlar, Ukraynada uzun illərdir yaşayan, işləyən soydaşlarımız öz diaspor təşkilatlarına dəstək oldular, kim nəyi bacardısa etdi. Kömək etməyə çalışdı. Biz Xarkov şəhərindən təxliyə prosesini xüsusi vurğulaya bilərik. Oradakı konsulluğumuz, həqiqətən çox yaxşı çalışdı, real təhlükə altında qalan həmvətənlərimizin, ümumiyyətlə, həyatları təhlükə altında olan insanların xilası, təhlükəsiz bölgələrə təxliyəsi üçün vacib addımlar atdılar. Moldovadakı səfirimizin fəaliyyəti, təbii ki, təqdirəlayiqdir. Belə ağır vəziyyətdə insanların təxliyəsinə nail olundusa, diasporla işi və yerli diaspor təşkilatlarımızın fəaliyyətini müsbət qiymətləndirməliyik.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



## Ermənistanın dirçəlməsi üçün ən azı 30 il lazımdır

### Ölkənin Hindistan və İordaniyadan aldığı texnika silah arsenalının yalnız 10 faizini təşkil edə bilər

**Ermənistan Hindistan və İordaniyadan ən fəal silah idxalçılarından birinə çevrilib.**

Bu barədə Stokholm Sülh Problemləri Araşdırmaları İnstitutu tərəfindən hazırlanmış "Beynəlxalq silah ticarətində tendensiyalar" hesabatında deyilir.

Hesabatda qeyd olunur ki, 2017-2021-ci illər ərzində Hindistanın silah ixracında Ermənistanın payı 13 faiz təşkil edib.

Eyni zamanda, Ermənistanın İordaniyanın silah ixracatında payı 10 faiz təşkil edib.

Beləliklə də, İrəvan Hindistan və İordaniyadan silah idxalı həcminə görə hər iki ölkə üzrə üçüncü olub.

Bütün bunlar Qarabağda aldığı məğlubiyyətdən sonra özünü və ordusunu toparlamağa çalışan Ermənistanın əvvəlki halına qayıtmaq cəhdləridir.

**Mövzunu "Şərq"ə dəyərləndirən hərbi ekspert Elxan Şıxəliyev bildirib ki, Ermənistanın ordusunu təşkilatlandırmağa və yeni silahlarla təchiz etməyə çalışmağı təbiidir.**

"Ancaq bunu yalnız əllərində olan baza ilə edə bilərlər. Çünki erməni ordusunun heyəti rus texnikalarına öyrəşib. Təkcə atıcı silahlar, tank əleyhinə raket və hava hücumundan müdafiə sistemlərində yenilik tətbiq edə bilərlər. O da ümumi silah arsenalının çox az qismini əhatə edir. Ona görə də Ermənistan 44 günlük müharibədən sonra düşdüyü vəziyyətdən əvvəlki halına qayıtması çox çətin olacaq".

**Ekspert həmçinin qeyd edib ki, mövcud silah arsenalında olan silahları qısa müddətdə başqa ölkənin silahları ilə dəyişdirmək mümkün olmur:**

"Bunun üçün 20-30 il müddətində keçid dönəmi lazımdır. Eyni zamanda keçmiş SSRİ dövründə və sonrakı dönəmdə Moskvadan silahlanmış Ermənistan Rusiyadan silah idxalını davam etdirməlidir. Çünki böyük çaplı və beşinci nəsil silahların idxalı üçün heyətlər yetişdirmək vacibdir. Bunu qısa dönəmdə edə bilməyəcəyi üçün Ermənistan asanlıqla Rusiyadan qopub başqa ölkələrə üz tuta bilməz. Buna görə də onun Hindistan və İordaniyadan aldığı texnika silah arsenalının 10 faizini təşkil edə bilər. Nəticədə yeni silahlar almaq onların döyüş hazırlığını yüksək səviyyəyə çatdırmayacaq".

**Sənan İsmayıl**

## Müharibə dünyada ərzaq qıtlığı yaradıb

### Bahalaşma ən sonda çörəyin qiymətinə təsir göstərəcək

**Rusiya-Ukrayna münaqişəsi dünyada ərzaq qiymətlərinin artmasına səbəb olub. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına əsasən, geosiyasi gərginlik fonunda yaranacaq tədarük çatışmazlığı səbəbindən qlobal ərzaq və yem qiymətləri 8-20 faiz bahalaşa bilər.**



*"Ukrayna ərazisi xarabalığa çevrilib. Orada növbəti sezonda taxıl istehsalından söhbət gedə bilməz. Rusiyada da sanksiyalara görə taxıl və buğda istehsalı kəskin şəkildə azalacaq"*

Təşkilatın məlumatına görə, ümumilikdə qlobal ərzaq qiymətləri indeksi yanvarla müqayisədə 4 faiz, 2021-ci ilin eyni dövrünə nəzərən isə 25 faiz artıb. Buğdanın, ümumilikdə dənli bitkilərin qiymətləri 3 faiz bahalaşıb.

BMT-nin Ümumdünya Ərzaq Proqramının sözçüsü Tomson Piri bildirib ki, Ukraynadakı münaqişə ərzaq qiymətlərinin artmasına və dünyada aclığa səbəb ola bilər: "Avropanın çörək səbəti kimi tanınan Qara dəniz hövzəsi taxıl və kənd təsərrüfatı məhsullarının istehsalı üçün ən mühüm regionlardan biridir. Dünya buğda ixracının 30, qarğıdalı ixracının 20 və günəbaxan tədarükünün 76 faizi Ukrayna və Rusiyanın payına düşür". O qeyd edib ki, artan ərzaq və yanacaq qiymətləri onsuz da çoxalan istehlak xərclərini daha da artırır ki, bu da yoxsulluq və hətta aclığa gətirib çıxara bilər.

Rusiya və Ukrayna dünyanın ən mühüm kənd təsərrüfatı istehsalçılarıdır. Rusiya sanksiyalar fonunda daxili tələbatı ödəmək üçün avqustun 31-nə qədər bir sıra ərzaq məhsullarının, şəkərin, dənli bitkilərin, buğdanın ixracına məhdudiyyətlər tətbiq edib. Münaqişə nəticəsində artıq buğdanın qiyməti son 14 ilin ən yüksək göstəricisi olub. Ukraynada müharibə başlayandan sonra buğda bazarında qiymət 40 faizdən çox artıb ki, bu da taxıl məhsulları üçün ən yüksək artım olub. Martın 7-də buğda bazarı 2008-ci ildən bəri maksimuma çatıb. Statistik məlumatlara əsasən, Azərbaycanda illik buğda tələbatı 3,5 milyon tondur. Ölkəmizin özünün buğda ilə təminatı 60 faizə yaxındır. Digər 40 faiz isə idxal olunur. Ölkəmizin ən çox taxıl, buğda idxal etdiyi ölkə Rusiyadır.

**İqtisadçı Pərviz Heydərov "Şərq"ə deyib ki, Rusiya-Ukrayna müharibəsi təkcə taxıl deyil, bir çox ərzağın qiymətlərinin bahalaşmasına səbəb olacaq.** Ekspert bildirib ki, müharibədən öncə də dünyada ərzaq bahalaşması prosesi gedirdi: "Əvvəlki qiymət artımlarına səbəb pandemiya idi. Koronavirus pandemiyasına görə iqtisadi sahələr məhdudiyyətlərlə üzləşmiş, iqtisadi tənəzzül baş vermişdi. 2021-ci il dünya və Azərbaycan iqtisadiyyatı üçün bərpa ili kimi yadda qaldı. Amma bərpa üçün uzun vaxt tələb olunduğuna görə, təklif artan tələbi ödəyə bilmədi və bahalaşma start götürdü. Keçən ilin yanvarından dünyanın əsas ixracatçıları sayılan ölkələr bəyan etdilər ki, əvvəlki dönəmdə olduğu kimi taxıl və buğda sata bilməyəcəklər. Üstəlik, ixraca rüsumlar tətbiq etməyə başladılar. 2021-ci il dünya bazarında ərzaq yüksək dəyərini qorudu. İqtisadçılar prosesin cari ilin ortasında dayanacağını proqnozlaşdırırdılar. Ancaq Rusiya-Ukrayna müharibəsinin başlaması proqnozları alt-üst etdi və bahalaşmanı daha da kəskinləşdirdi".

*P.Heydərov əlavə edib ki, ərzaq bahalaşması çörəyin qiymətinə ən sonda təsir göstərəcək: "Ukrayna ərazisi xarabalığa çevrilib.* Orada növbəti sezonda taxıl istehsalından söhbət gedə bilməz. Rusiyada da sanksiyalara görə taxıl və buğda istehsalı kəskin şəkildə azalacaq. Sözsüz ki, bu amillər qiymətlərin bahalaşmasına səbəb olacaq. Bir müddət əvvəl Azərbaycanda un və un məmulatlarının qiymətlərində artım baş verdi. Cari il ərzində qiymətlərin yenidən artacağı istisna edilmir".

**İsmayıl Qocayev**

## Pandemiya buraxılış imtahanına təsirini göstərib

### Şagirdlər riyaziyyat fənni üzrə test tapşırıqlarından narazı qalıblar

**11 illik təhsil sistemi üzrə şənbə və bazar günləri keçirilən buraxılış imtahanlarının çətinliyindən narazılıq edilir. İmtahanda iştirak etmiş 11-cilər xüsusilə riyaziyyat fənni üzrə test tapşırıqlarının çətinliyindən gileylənir. Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, rəhbəri olduğu Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzi imtahan iştirakçıları arasında sorğu keçirib:**



- Sorğu zamanı məlum oldu ki, bəli, şagirdlər əsasən riyaziyyat fənni üzrə test tapşırıqlarından narazıdırlar, yəni, sualların çətin olduğunu dedilər. Həm açıq tipli test tapşırıqları, həm də situasiya xarakterli tapşırıqlar. Məncə, şagirdlərin test tapşırıqlarını ağır hesab etməsi pandemiya ilə əlaqədardır. Çünki pandemiya müddətində şagirdlər dərslərdə müntəzəm iştirak edə bilmirdilər. Onlayn dərslərsə ənənəvi, əyani dərsləri əvəz edə bilmir. Müəllimin sinifdə dərsi, tapşırıqları əyani şəkildə başa salması ilə onlayn qoşulma arasında böyük fərq var. Şagirdlər yaxşı hazırlaşa bilməyiblər deyə, suallar çətin görünüb onlara. Bizim qeyd etdiyimiz nöqsan ingilis dili fənni üzrə dinləmə tapşırıqları ilə bağlıdır. Dinləmə tapşırıqları qurğular vasitəsilə icra olunur. Sorğu zamanı şagirdlər dinləmə qurğularının işində problem yarandığını, normal dinləmənin mümkün olmadığını, səslərin aydın eşidilmədiyini dedilər. Hesab edirik ki, ümumiyyətlə, dinləmə tapşırıqları imtahan başlayan kimi səsləndirilməlidir. Bu, şagirdləri çaşdırır. Yaxşı olar ki, xarici dil fənni üzrə dinləmə tapşırıqları imtahan müddətinin ortasında səsləndirilsin. Ümumi götürdükdə, buraxılış imtahanlarında test tapşırıqları orta-asan-ağır sistemi üzrə olub. Məncə, bu, normaldır.

**Məlahət Rzayeva**

# Sosial mediada gerçəkdən uzaq foto və videolar yayılır

## "Baş Prokurorluq və Müdafiə Nazirliyinin müraciətinə ikinci fikir ola bilməz"




**Baş Prokurorluq və Müdafiə Nazirliyi media subyektlərinə və sosial şəbəkə istifadəçilərinə müraciət edib. Qeyd olunub ki, son günlər bəzi media vasitələri və sosial şəbəkələrdə Azərbaycan Ordusuna məxsus müxtəlif texnikanın hərəkətini və dislokasiyanı guya əks etdirən, həqiqətə uyğun olmayan video, fotolar və digər informasiyalar yayılır.**

Vurğulanıb ki, bu tərz uydurma xəbərlər ictimaiyyətdə yanlış rəyin formalaşmasına, eyni zamanda hərbi və dövlət sirlərinin yayılmasına səbəb olur. Baş Prokurorluq diqqətə çatdırıb ki, qeyd olunan neqativ hallara yol vermiş şəxslər barəsində mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görüləcək: "Süni ajiotaj yaratmaq məqsədilə dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış bu cür informasiyaların, səs yazılarının, foto və videogörüntülərin yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur". Qurumlar sosial şəbəkə istifadəçilərini bu cür təxribatlara uymamağa, həmçinin rəsmi təsdiqini tapmayan məlumatları yaymamağa çağırıb.

**"Hər kəs dövlətin təhlükəsizliyi məsələsində daha diqqətli və həssas olmalıdır"**

**Müvafiq qurumların xəbərdarlığı ilə bağlı "Şərq"ə danışan tanınmış jurnalist, media eksperti, professor Qulu Məhərrəmli bunun çox ciddi və birbaşa dövlətin, ölkənin təhlükəsizliyi ilə bağlı olduğunu deyib. Professorun sözlərinə görə, bu məsələyə yanaşmada ikinci fikir yoxdur:**
"Sosial mediada bəzən əyləncə, maraq və fərqlənmə xatirinə yalan, gerçəyi əks etdirməyən məlumatlar, yaxud keçmiş dövrə aid foto və videolar paylaşılır. Vətəndaşlarımız belə məqamlarda çox diqqətli olmalıdır. Peşəkar media orqanları isə sosial şəbəkələrdəki dəqiq olmayan məlumatlara, foto və videolara istinad etməməlidir. Sosial şəbəkə mötəbər mənbə deyil və orada yayılan xəbərlər çox vaxt həqiqəti əks etdirmir. Əksər hallarda manipulyativ, sensasiya xatirinə yerləşdirilmiş materiallar olur. Bu məsələ ənənəvi mediadan peşəkar yanaşma tələb edir. Baş Prokurorluğun və Müdafiə Nazirliyinin müraciətinin söz, mətbuat azadlığı, jurnalistin sərbəst fəaliyyəti ilə bağlı heç bir əlaqəsi yoxdur. Burada söhbət birbaşa milli təhlükəsizlikdən gedir. Bütün media qurumları, hər bir vətəndaşımız bunu nəzərə almalı, maksimum diqqətli və həssas olmalıyıq".

**İsmayıl Qocayev**

# "Ver məni məhkəməyə"

## Roza Zərgərli Elza Seyidcahanın onu hədələməsinə məhəl qoymayıb



**Müğənni Roza Zərgərli küsülü olduğu Əməkdar artist Elza Seyidcahanın onu hədələməsinə məhəl qoymayıb.**

Sənətçi "Şourum" proqramında onunla bağlı sualları cavablandırıb. Roza bildirib ki, Seyidcahan onu məhkəmə ilə hədələyib: "Elza yaxşı bəstəkardır, gözəl də ifaçıdır. Bəstələri ilə brend bəstəkar ola bilərdi. Heç kimlə küsülü deyiləm. Elza, adını çəkdim, ver məni məhkəməyə. Təzyiqim qalxdı. Dörd dəfə o səhv edib, yaşca böyük olsa da, məni təhqir edib. Onu bağışlamışam. Efirimdə də dedim ki, oğlu Ələkbəri sevirəm, hörmətimi sağlayıb. Dedi ki, anamdan inciməyin. Barışmağımızı istədi. Elza bunu danır. Elza özü yalanla yoğrulub. Dramaturq deyiləm sənin kimi ki, ssenari yazım. Elzanı bağışlayıram. Məni müzakirə edib, gülə-gülə yola vermişəm".

*Qeyd edək ki, müğənnilər arasında qalmaqalın ikinci dəfə alovlanmasına səbəb Rozanın Elzanın ona 5 min manat borcu olmasını açıqlaması olub. E.Seyidcahan qarşı tərəfin ünvanına "Bütün günü cərrahdadırlar. O qədər üzlərini dartdırıblar ki, ağıllarıda dartılıb" sözlərini söyləyib.*

**Aygün**

**Elan**

Kazımov Aqşin Böyükağa oğlunun adına məxsus JN-4956D, kod 00306016 torpağın şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

# Damla açıqladı: "Rusiya şou-biznesinə qatılmaq planım olmayıb"



**Bir neçə gün əvvəl Rusiyaya beynəlxalq uçuşlar təxirə salınıb. Bu səbəbdən azərbaycanlıların ölkəyə qayıtmasında problem yaranıb.**

Problemlə üzləşənlərdən biri də müğənni Damladır.

"Şərq" xəbər verir ki, Sankt-Peterburqdan "ŞouRum"a müsahibə verən müğənni "Rusiya şou-biznesinə qatılmaq istəyirsən" sualını belə cavablandırıb:

"Yatsam da yuxuma gəlməz. Heç vaxt Rusiya şou-biznesinə qatılmaq planım olmayıb. Xəyallarla yaşamamışam. Hər ifaçı öz ölkəsi üçün çalışsa, daha yaxşı olar. Dağa-daşa çıxmağa nə ehtiyac var ki?!".

**Aygün**

# "Atamın ölümünü instaqramdan öyrəndim"

## Səyyad Əlizadənin oğlu: "Onun arzularını yavaş-yavaş yerinə yetirəcəm"



**"Çox heyif ki, bu dünyanı tez tərk etdi. Onunla ənənəmiz var idi, hər il bir dəfə zooparka gedirdik və şəkil çəkdirirdik. Bu 6 il davam etdi. Təhsilimdən çox maraqlanırdı. Deyirdi ki, yaxşı təhsil al, gələcəkdə bizə və ailənə yaxşı dəstək ola biləsən. Onun arzularını yavaş-yavaş yerinə yetirəcəm".**

Bu sözləri mərhum müğənni Səyyad Əlizadənin oğlu Atabəy "O üz" proqramında deyib. Atası ilə bağlı xatirələrini bölüşən Atabəy bildirib ki, atasının arzularını bir-bir yerinə yetirəcək:

"Aqustun 23-24-ü kəndimizə getdik. Nənəmgilin dəfn olunduğu qəbiristanlıq var. Nə zaman qəbiristanlığa getsək oranı özü təmizləyirdi və mənə də kömək üçün icazə verirdi. Bu dəfə icazə vermədi, tək özü etdi. Özünün dəfn olunduğu yeri də təmizlədi. Atam ağır halda xəstəxanaya aparıldı, amma sağalacağına inanırdım. Gecə 10-na qalırdı, instaqramı açdım, birinci atamın şəkli gəldi və "Allah rəhmət etsin, çox heyif" yazılmışdı. Onda bütün dünya başıma uçdu. Sonra evdəkilərdən zəng gəldi ki, atanın vəziyyəti ağırdır, gəl bura. Onda anladım ki, atam vəfat etdi. Bir gün olacaqdı, amma belə tez olacağını bilmirdim".

**Aygün**

# Heç bir bank insanlardan şəxsi informasiya tələb etmir

## "Məqsədyönlü seçilmiş bir şəxs yoxdur. Sadəcə "tora düşən"lərin fərdi məlumatfları oğurlanır"



**Azərbaycan Beynəlxalq Bankının 30 illik yubileyi münasibətilə pul udmaq şansı barədə "Whatsapp"la yayılan mesajlar göndərilir.**

Yayılan mesajlarla bağlı "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin mətbuat xidmətinin rəhbəri Yadigar Cəfərli bildirib ki, bu paylaşımların ABB-yə heç bir aidiyyəti yoxdur:

"Belə yalan çağırışların məqsədi isə müştərilərin fərdi məlumatlarını ələ keçirib, sonra onlardan öz məqsədləri üçün istifadə etməkdir. Müştərilərin bu cür saxta məlumatlara inanmamasını xahiş edirik. ABB-yə aid məlumatlarda əsas mənbə kimi www.abb-bank.az adlı saytımıza və sosial şəbəkələrdəki korporativ səhifələrimizə istinad edilməsi tövsiyə olunur".

**İKT üzrə mütəxəssis Elvin Abbasov "Şərq"ə açıqlamasında bildirib ki, haker hücumlar bir neçə kateqoriyaya bölünür:**

"Onları da iki əsas yerə ayırmaq olar. İlk olaraq qurban seçilir. Daha sonra haker və ya "heck team" obyekt üzərində işləyir. Növbəti mərhələdə sosial araşdırma edir. Müəyyən informasiyalar aşkarlandıqdan sonra hansı tip hücumla icra prosesi baş tutacağı seçilir. Bu, daha çox bilincli, yəni kiberhücum sayılır.

Mütəxəssis onu da əlavə edib ki, haker hücumlarının digər əsas növü isə fişinq və ya "sessia" və s. kimi adlanır:

"Bu tip qurban seçilmədən həyata keçirilir. Yəni ümumi bir taktika götürülür və anons edilir. Həmin elanlara reaksiya verənlər "tələ"yə düşmüş hesab edilir. İkinci hücum tipinə kiber dələduzluq adı da vermək olar. Məqsədyönlü seçilmiş bir şəxs yoxdur. Sadəcə "tora düşən"lərin fərdi məlumatları oğurlanır".

*E.Abbasov diqqətə çatdırıb ki, ölkəmizdə indiyə qədər ikinci kateqoriya üzrə daha çox hallar baş verib:*

"Bank, polis əməkdaşı kimi, güc strukturları adından zənglər edirlər. Bu formada zənglərin hər birində bank kartlarına aid və ya şəxsi məlumatlarla bağlı suallar veriləək informasiyalar toplanılır. Birinci kateqoriyada qurban seçimi varsa, texniki təhlükəsizlikdən danışmaq olar. Amma digər növ üzrə texniki təhlükəsizlik aktuallığını itirir. Eyni zamanda vətəndaşları maarifləndirmək lazım olur. Onlar bilməlidir ki, heç bir halda zəng ilə müraciətlərində şəxsi məlumatları vermək olmaz. Artıq bank və digər strukturlar zənglə fərdi informasiya əldə etmir. Həmçinin ümumi elan səhifələri göndərmir".

**İT mütəxəssisi Emin Qasımov isə vətəndaşlara bu kimi analoji hallarla qarşıladıqları zaman nə edəcəkləri barədə tövsiyələrini verib:**

"Bele mesajlara reaksiya verməmək, heç kimə öz şəxsi məlumatlarını yaymamaq vacibdir. Çünki heç bir bank, şirkət insanlardan şəxsi informasiya tələb edə bilməz. Bundan başqa, nömrələri heç bir güvənilməyən saytlarda qeyd etməsinlər. Lüzumsuz yerə qeydiyyatdan keçməsinlər. Belə situasiyalarla rastlaşdıqda mobil operatorlara müraciət edilməli, həmin nömrələr əngəllənməlidir. Həmçinin bankların, şirkətlərin mobil operatorlar vasitəsilə legitimləşdirilməsinə, onlara patent verilməsinə çağırıram".

**Sücayət Mehti**

Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

# "Uşaq Qaynar Xətt" xidməti Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığa başladı

## Azercell-in dəstəklədiyi xidmət uşaqları bədbəxt hadisələrdən qorumaq üçün yeni imkanlar açır

**"Azercell Telekom" MMC-nin dəstəyi ilə yaradılan və fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" (AUQX) xidmətinin əməkdaşlıq etdiyi dövlət qurumları sırasına Fövqəladə Hallar Nazirliyi (FHN) də əlavə olundu.**

Mart ayından başlayan yeni əməkdaşlıq çərçivəsində Fövqəladə Hallar Nazirliyinin "112" xidmətinə uşaq və yeniyetmələr tərəfindən daxil olan müraciətlər birbaşa olaraq "Uşaq Qaynar Xətti"nə yönləndiriləcək. Fövqəladə Hallar Nazirliyinin "112" qaynar xəttinə köməksiz halda olan insanlar, o cümlədən uşaq və yaşlılar da müraciət edirlər. Odur ki, yeni əməkdaşlıq ağır vəziyyətlə üzləşən azyaşlılara kömək etmək, baş verə biləcək hər hansı bədbəxt hadisənin qarşısını almaq, psixoloji basqı və zorakılıqla üzləşən yeniyetmələrə dərhal peşəkar yardımın göstərilməsi baxımından çox əhəmiyyətlidir.




Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin "112" qaynar xəttinə günün istənilən vaxtı sabit şəbəkə telefonlarından (ATS), bütün növ taksofonlardan və mobil operatorlardan ödənişsiz olaraq zənglər qəbul olunur.

"Azərbaycan Uşaq Qaynar Xətt" xidməti hər il müxtəlif çətinliklərlə üzləşən minlərlə uşaq və yeniyetməyə təmənnasız yardım edir. Hüquqları pozulan uşaqları psixoloji və fiziki zədələrdən qorumaq məqsədi daşıyan bu mərkəz 11 ildən artıqdır ki, "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi, Azercell Telekom, UNİCEF Azərbaycan, həmçinin uşaq problemləri sahəsində çalışan dövlət qurumları ilə birgə əməkdaşlıq sayəsində gərgin işini davam etdirir. Bu müddətdə AUQX 53.000-dən çox müxtəlif xarakterli müraciət cavablayıb. Mərkəzə daxil olan bütün müraciətlər məsləhətçi-hüquqşünas, psixoloq və sosial işçilər tərəfindən dinlənilir. Zəng edənlərə lazımi məsləhətlər verilir, bəzi hallarda isə onlar müvafiq qurumlara yönləndirilir. Zorakılığa məruz qalmış uşaqlar və onların ailə üzvlərinə mərkəzin peşəkar əməkdaşları tərəfindən təcili psixoloji yardım da göstərilir.

*"Azərbaycan Uşaq Qaynar Xətti" xidmətinə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, ushaqqaynarxetti@gmail.com elektron poçt ünvanına, facebook və instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 556



## Noutbuklar keçmişdə qalır

Artıq onlara ehtiyac yoxdur

**"Google"nin Android üzrə texniki direktoru Riş Mayner yaxı gələcəkdə noutbukların tarixə qovuşacağını bildirib. Artıq planşetlərə tələbat və satışı noutbukları üstələyib.**

Bakupost.az xəbər verir ki, ekspert bildirib ki, pandemiya girəndən planşetlərə maraq ikiqat artıb. Onların populyarlığını artıran yeni klaviatura imkanının yaradılmasıdır.

Artıq planşetlərin proqram və aparat təminatı ondan yaradıcı məqsədlər üçün istifadə etməyə imkan verir.

Onlar noutbuklardan daha yığcam, funksional və ucuzdur. Bunları nəzərə alaraq, Google OC Android 12L hazırlanmasına başlayıb.

2021-ci ildə planşetlərin satışı faktiki olaraq noutbukların sayını keçib.

"Mən düşünürəm ki, çox da uzaq olmayan gələcəkdə elə bir kəsişmə nöqtəsinə gələcəyik ki, istehlakçılar noutbuk əvəzinə planşeti seçəcək. Biz o nöqtəni keçən ki, proses daha heç vaxt geri qayıtmayacaq və noutbuklar tarixə qovuşacaq".

## Zarafat faciə ilə bitdi

Nişanlısı ilə telefonla danışan çavuş özünü başından vurub



**Türkiyənin Hatay bölgəsində faciə yaşanıb. Hərbçi olan Doğukan nişanlısı ilə telefonla danışan zaman zarafat etmək istəyərkən özünü başından vurub və həyatını itirib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisə Samandağ qəsəbəsinə bağlı Şükrü Kanatlı məhəlləsində baş verib. İddiaya görə, çavuş Doğukan Ok (23), evində nişanlısı E. U. ilə telefonda danışarkən əlindəki tapança ilə zarafat etmək üçün tətiyi çəkib. Başından ağır yaralanan çavuş, hadisə yerinə gələn təcili yardım maşını ilə xəstəxanaya çatdırılıb.

Lakin xəstəxanada edilən bütün müdaxiləyə baxmayaraq Doğukan Ok həyatını itirib.

**Turan**

## Moskvada maska rejimi ləğv edilir



**Moskvada koronavirus pandemiyası ilə əlaqədar tətbiq edilmiş qoruyucu maskalardan istifadə tələbi ləğv olunur.**

**Bu barədə Rusiya paytaxtının meri Sergey Sobyanin bəyan edib. Mer bildirib ki, şəhərdə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar martın 15-dən maska taxmaqla bağlı tələb aradan qaldırılır.**

## Hər qüllədə yaşayış mənzilləri var

**Memar qeyri-adi ekorayon layihə hazırlayıb**



**Futuristik layihələri ilə tanınan belçikalı memar Vinsent Kallebut Yeni Dehlidə (Hindistan) tikintisi planlaşdırılan bütöv bir ekorayon layihəsini təqdim edib. Belçikalı memar bu dəfə "Hyperions" adlı çoxfunksiyalı kompleksin konsepsiyasını hazırlayıb.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, burada - yaşayış sahələrinin yanında üzvi qida istehsal edən təsərrüfatlar yerləşəcək və alternativ enerji mənbələri ərazinin elektrik enerjisinə olan tələbatını tam ödəyəcək. Layihə polad konstruksiyalarla möhkəmləndirilmiş, yerli istehsal olan laminatlı taxta panellərdən hazırlanmış altı 36 mərtəbəli qüllədən ibarətdir. Binalar üçün enerji külək turbinləri və xüsusi elementlər tərəfindən yaradılacaq. Yaşayış mənzilləri ilə yanaşı, hər bir qüllədə restoranlar, idman zalları və ofislər olacaq.**

## İran elektrik enerjisi ilə işləyən ilk avtobusunu təqdim edib



**İranın "İran Xodro" avtomobil istehsal edən şirkəti elektrik enerjisi ilə işləyən ilk avtobusunu təqdim edib. Azərtac xəbər verir ki, şirkət ildə min elektroavtobus istehsal etmək imkanına malikdir.**

**Qeyd edək ki, "İran Xodra" İranın ən iri avtomobil istehsal edən şirkətidir. Bu şirkət müxtəlif növdə ildə 1 milyon ədəd avtomobil istehsal edir. Şirkətin Azərbaycan, Misir, Suriya, Venesuela və Seneqalda birgə müəssisələri var.**

**Şirkətin açıqlamasında bildirilib ki, yaxın gələcəkdə Tehranın ictimai nəqliyyatı tamamilə elektroavtobuslardan ibarət olacaq.**



# Nadinclik etdiyinə görə qızını öldürdü

## Qatil anaya 11 il iş verildi



**Türkiyənin Tekirdağ bölgəsi Çərkəzköydə yaşayan 27 yaşlı Məryəm Doğan birinci həyat yoldaşı Yaqub İpekdən olan övladı, 3 yaşlı qızı Şükran İpəyin ölümünə baisolma cinayəti üzrə 11 il azadlıqdan məhrum edilə bilər.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, M.Doğan ikinci dəfə evlənib, körpə qızını da yanında saxlayıb. Ötən ilin mart ayında körpə Şükran qarnındakı ağrı səbəbiylə xəstəxanaya aparılıb. Həkimlərin müayinəsi zamanı daxili qanaxma baş verdiyi müəyyənləşib. Həkimlər qızcığazın həyatını xilas etməyə çalışsalar da, buna müvəffəq olmayıblar. Körpənin ölümü şübhəli hesab edildiyindən polisə məlumat verilib. Körpənin anası Məryəm Doğan istintaqa cəlb edilib. İstintaq zamanı M.Doğan deyib ki, mənzildə yaramazlıq etdiyi üçün uşağın qarnına 2-3 dəfə yumruq vurub. Qarın nahiyəsində sancı və ağrı da bundan sonra başlayıb: "Qızımın qarnında ağrı başladı, sonra da qaytardı. Onu xəstəxanaya aparmadım, ağrıkəsici dərman verdim. Ertəsi gün, səhər vaxtı məndən su istədi, yerdə halsız uzanmışdı. Onu bu halda gördükdən sonra həyat yoldaşımla xəstəxanaya apardıq". Məhkəmədə isə M.Doğan qızını bilərəkdən vurmadığını, onu öldürmək niyyəti olmadığını deyib: "Övladımın qəyyumluğu öz atasının üzərindədir. Bir müddət əvvəl onu yanıma aldım. Öldürmək istəsəydim, bunu daha öncə edərdim. Niyə övladımın canına qəsd edim ki?!. Uşaq bundan əvvəl pilləkəndən yıxılmışdı. Bədənində göyləklər vardı. Günlərlə başından ayrılmadım. Gözümə yuxu getmədi. Belə olacağını hardan biləydim? Uşağın halı pisləşən kimi həyat yoldaşıma zəng etdim, o da gəldi, qızımı xəstəxanaya apardıq". Uşağın atası Yaqub İpək isə keçmiş həyat yoldaşının ən ağır cəzaya məhkum edilməsini istəyib: "İki övladımız var. Biz boşandıqda anaları onlara baxa bilməyəcəyini söylədi və uşaqların qəyyumluğu mənə verildi. Uşaqlar Kırıkkalədəki uşaq müəssisəndə qalırdı. Sonra mənə zəng etdilər ki, burada körpələrin qalması üçün şərait yoxdur, onları Təkirdağa göndəririk. Dedim ki, uşaqların anası da Təkirdağdadır. Başqasıyla evlənib. Uşaqlara baxa bilməyəcək. Mən də baxa bilmirəm. İmkan olan kimi onları yanıma, İstanbula gətirəcəm. Müdir mənə qulaq asmadı, işimizə qarışma dedi. Qızım öldüyü gün dayısı zəng edib xəbər verdi. Uşağı qucağıma alanda bədənində göyləklər olduğunu gördüm. Məryəm ifadəsində "uşaq mənimdir, döyərəm də, sevərəm də" deyib. Mən şikayətçiyəm, Məryəmdən də, müəssisə müdirindən də. Qızımı məndən izinsiz anasına təslim etdiyi üçün". Hakim Məryəm Doğana qəsdən adamöldürmə cinayətinə görə 14 il azadlıqdan məhrumetmə cəzası versə də, qadının sosial vəziyyəti və məhkəmədəki davranışları, səmimi etirafları nəzərə alınaraq cəzasını 11 ilə endirib.

**Məlahət Rzayeva**



# Ukraynadan Türkiyəyə qonşularını da gətirdi

## "Mehriban qonşularımız bizə mənzillərinin qapısını açdı"

**Daha bir həyat hekayəsi. "Şərq" "Milliyet.com"da yer alan hekayəni təqdim edir. Ticarətlə məşğul olan 45 yaşlı Sinan Dolgan 10 il əvvəl Ukraynanın Xarkov şəhərinə köçüb.**



Orada 38 yaşlı Olqa ilə evlənib. 2 qızları var. Rusiyanın Ukraynaya hərbi müdaxiləsi başladıqda Sinan Dolgan Türkiyəyə qayıtmaq qərarına gəlib. Amma təkcə öz ailəsini düşünməyib. Çətin günlərdə bir-birilərinə arxa, dayaq olduqları qonşuları - Mariya ilə fiziki qüsurlu həyat yoldaşı Andrey Slonovu və onların övladları Artyomla Arinanı da özləriylə Türkiyəyə gətiriblər. Sinan Dolgan 4 gün ərzində digər insanların təxliyəsinə yardım edib, bu müddət ərzində ailəsini Slonovlara əmanət edib. İkinci təxliyə zamanı isə artıq özləri Türkiyəyə gəliblər. İki ailə Xarkovdan Çernivtsiyə, oradan Rumıniyaya, sonra da təyyarə ilə İstanbula uzun, yorucu yol qət edib. Hazırda Dolgan və Slonovlar ailəsi Sinanın İstanbul, Çatalcadakı mənzilində yaşayır. Sinan Türkiyəyə qayıdışını belə anladıb: "Hər an həyatımız təhlükə altındaydı. İlk hava hücumu zamanı böyük qaçış oldu. Əhali şəhəri tərk etmək istəyirdi, amma yollar bağlıydı. Aramızda azərbaycanlılar, türkmənlər də vardı. Heç bir əşyamız yox idi. Yolda ərzaq sıxıntısı yaşadıq. Övladlarımızı düşündük, qərar verdik və Türkiyəyə gəldik. Qonşularımızı orada çarəsiz buraxa bilməzdik. Onlara "Avropamı, Türkiyəmi, deyə sual verdim, "Türkiyə!" dedilər. Türkiyəni seçdilər. Rumıniyadan təyyarə ilə gəldik. Dövlətimə təşəkkür edirəm". Mariya Kramarenko isə Vətəninə dönəcəyi günü gözlədiyini deyib: "Burada təhlükəsizik. Uşaqlarımızın həyatı xilas edilib. Amma ölkəmi, şəhərimizi buraxıb gəldiyim üçün üzgünəm. Çox ağırdır". Andrey Slonovun Ukraynadan çıxışına isə fiziki qüsurlu olduğu üçün icazə verilib: "Sərhədi keçəndə, ölkəmizi geridə buraxdığımızı anladım. Hamımız ağladıq. Bu, çox qəribə bir hissdir. Burada bizə hər cür şərait yaradılıb. Türkiyə dövlətinə təşəkkür edirik. Mehriban qonşularımız bizə mənzillərinin qapısını açdı. Uşaqlar birlikdə oynayır, mehribandırlar. Amma müharibə bitər-bitməz ölkəmə qayıdacam. Evim, şəhərim üçün çox darıxıram".

**Məlahət Rzayeva**

## Mahsunun qardaşı həyat yoldaşına hücum çəkib

Polis əməkdaşları Yusufu əlində balta yaxalayıblar



**Son illərdə daha çox rejissorluğu, film çəkilişləri ilə gündəmə gələn məşhur müğənni Mahsun Qırmızıgülün adı bu dəfə qardaşının həbsiylə hallanır.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, əldə edilən məlumatlara görə, M.Qırmızıgülün qardaşı Yusuf Bazencir həyat yoldaşına balta ilə hücum çəkməkdə günahlandırılır. 46 yaşlı Yusuf Bazencirlə 5 il əvvəl evləndiyi Seval Bazencir boşanmaq qərarına gəliblər. Seval Bazencir Yusufa zəng edərək Beşiktaşdakı mənzilə gəlməməsini söyləyib. Lakin Y.Bazencir evin önünə gedib və balta ilə qapını qırıb mənzilə keçməyə cəhd edib. Seval polisə zəng edib. Hadisə yerinə gələn polis əməkdaşları Yusufu əlində balta yaxalayıblar. Y.Bazencir polis şöbəsinə aparılıb, haqqında iddia qaldırılıb. Y.Bazencir barəsində "təhdid-həqarət" əməlinə görə cinayət işi açılıb. Xatırladılır ki, Y.Bazencirlə Seval Bazencir 2017-ci ildə evlənmişdi. İzdihamlı toyda M.Qırmızıgül də iştirak edib, mahnılar oxuyub.

**Məlahət**

## Mobil telefonları tatular əvəzləyəcək

Bill Geyts maraqlı proqnoz verdi



**Mobil telefonlar elektron döymələrlə əvəz oluna bilər.**

Bu proqnozu "Microsoft" şirkətinin qurucusu Bill Geyts verib.

Yeni inqilabi ixtira haqqında ətraflı danışan milyarder qeyd edib ki, dəridə edilən elektron tatular tibbi məlumatları toplayıb idarə edə biləcək. Hazırda hazırlanmaqda olan bu cihaz yeni texnoloji fenomen olacaq və əlavə heç bir vasitədən istifadə etmədən qan təzyiqini, ürək döyüntüsünü, qanda oksigen dərəcəsini ölçəcək, həmçinin mobil telefonların funksiyalarına malik olacaq.

Geytsin sözlərinə görə, adi tatudan fərqli olaraq, burada çernildən əlavə, çiplərdən və elektrik istehsal edən nanotexnologiyalardan istifadə olunacaq. "Chaotic Moon Studios" tərəfindən yaradılan bu döymələr insan təhlükədə olduğu zaman həkimə yardım siqnalları göndərə biləcək.

"İldə bir dəfə həkimin konsultasiyasına yazılmaq əvəzinə, bədənə ildə bir dəfə vurulan bu tatu orqanizmin vəziyyətini nəzarətdə saxlayacaq və məlumatları həkimə göndərəcək. (big.az) Narahatlığa səbəb olduqda, ekspertlər sizinlə əlaqə saxlayacaqlar", - deyə Geyts açıqlayıb.

Mobil telefonlar istehsal edən şirkətdən bildirilir ki, gələcəkdə istifadəçilər özləri də xüsusi aparat vasitəsilə, ağrısız və allergiya riski olmadan tatunu dərilərinə vura biləcəklər.

Burada əsas məqsəd sözügedən cihazı smartfon kimi istifadə etməkdir.